

# QANUNÇULUQ

HÜQUQ JURNALI

Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin orqanı




№ 09 - sentyabr 2021



Azərbaycan Respublikası demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu yolu ilə əzmlə irəliləyir.

**Heydər ƏLİYEV,**
**Azərbaycan xalqının ümummilli lideri**



**Əminəm ki, ədliyyə və məhkəmə orqanları hüquqi dövlət quruculuğu istiqamətində səylərini bundan sonra da davam etdirəcək və qarşıda duran vəzifələri layiqincə yerinə yetirəcəklər.**

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

# QANUNÇULUQ

## hüquq jurnalı

**№ 9 - sentyabr 2021**

**TƏSİSÇİ:**

**Azərbaycan Respublikasının**
**Ədliyyə Nazirliyi**

**BAŞ REDAKTOR:**

**Fikrət Məmmədov**

**REDAKSİYA HEYƏTİ:**

**Fuad Ələsgərov**
**Toğrul Musayev**
**Azər Cəfərov**
**Adil Əliyev**
**Cavid Hüseynov**
**Elçin Xələfov**

*"Qanunçuluq" jurnalı 1966-cı ildən nəşr olunur. Azərbaycanda demokratik, hüquqi dövlət quruculuğu sahəsində görülən işləri, ölkəmizdə həyata keçirilən məhkəmə-hüquq islahatını, ədliyyə və məhkəmə fəaliyyətini işıqlandırır, öz səhifələrində görkəmli alimlərin, təcrübəli hüquqşünasların məqalələrinə və gənc mütəxəssislərin çıxışlarına yer verir, Azərbaycan ədliyyəsinin tarixi, məhkəmə təcrübəsi və digər mövzularda materiallar, eləcə də yeni qəbul olunan qanunların, fərmanların və digər normativ-hüquqi aktların mətnlərini müntəzəm şəkildə dərc edir.*

© "Ədliyyə Nəşriyyat Evi"MMC

# Bu sayımızda

## RƏSMİ MƏLUMAT


Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin Anım Günü ilə əlaqədar xalqa müraciəti ....4
27 sentyabr Azərbaycanda Anım Günüdür ....7
Birinci vitse-prezident Mehriban Əliyeva Anım Günü ilə bağlı paylaşım edib ....8
Prezident İlham Əliyev və Birinci xanım Mehriban Əliyeva Vətən müharibəsi şəhidlərinin xatirəsinə ehtiram əlaməti olaraq keçirilən yürüşdə iştirak ediblər ....9
15 Sentyabr - Bakının işğaldan azad olunmasından 103 il ötür ....10
Prezident İlham Əliyev Sumqayıt Məhkəmə Kompleksinin açılışını edib ....13


## ƏDLİYYƏ XƏBƏRLƏRİ


Anım Günü ilə bağlı Ədliyyə Nazirliyində tədbirlər keçirilib ....15
Ədliyyə naziri tərəfindən vətəndaşların videoqəbulu keçirilib ....17
Məhkəmə-hüquq sistemi müasir çağırışlara uyğun təkmilləşir ....17
Sumqayıt Məhkəmə Kompleksinə media-tur təşkil olunub ....22
Mobil notariat xidmətləri xarici ölkələrdə böyük maraq doğurur ....24
"Dövlət rüsumu haqqında" Qanuna edilmiş dəyişikliklərlə bağlı ictimai müzakirə keçirilib ....26
Ali Məhkəmənin və Ədliyyə Nazirliyinin birgə məlumatı ....27
Ədliyyə orqanlarına qulluğa qəbul olunmaq istəyənlərin nəzərinə ....28


## QARABAĞ AZƏRBAYCANDIR!


Vətənə xidmət şərəfdir (Vətən müharibəsi iştirakçısı, ədliyyə işçisi Mərdan Adışlı ilə müsahibə) ....29
Vətən sizə əmanətdir (Vətən müharibəsi iştirakçısı, ədliyyə işçisi İsa Eyvazzadənin döyüş yolu) ....32


## YENİ QANUNLAR, FƏRMANLAR...


Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 74-cü maddəsinin və Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 39, 40 və 305.1-ci maddələrinin əlaqəli şəkildə şərh edilməsinə dair Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 2021-ci il 14 sentyabr tarixli Qərarı ....35

# Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin Anım Günü ilə əlaqədar xalqa müraciəti

**Müzəffər Ali Baş Komandan, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 27-də Anım Günü ilə əlaqədar xalqa müraciət edib.**






### Prezident İlham Əliyevin müraciəti

-Əziz həmvətənlər.

Düz bir il bundan əvvəl Ermənistan Azərbaycana qarşı hərbi təxribat törədərək bizim döyüş mövqelərimizi və yaşayış məntəqələrimizi atəşə tutmuşdur. Bu namərd atəş nəticəsində ilk saatlarda mülki şəxslər, hərbçilər həlak olmuşdur. Mənim əmrimlə Azərbaycan Ordusu bu qanlı cinayətə cavab olaraq genişmiqyaslı əks-hücum əməliyyatına başlamış və 44 gün davam edən İkinci Qarabağ müharibəsində tam Qələbə qazanmışdır. Keçən il dekabrın 2-də mənim Sərəncamımla sentyabrın 27-si Azərbaycanda Anım Günü kimi təsis edilmişdir. İkinci Qarabağ müharibəsində həlak olmuş qəhrəman şəhidlərimizin əziz xatirəsi qarşısında bu gün bir daha baş əyir, onlara Allahdan rəhmət diləyirik. Biz şəhidlərimizi öz qəlbimizdə əbədi saxlayacağıq. Eyni zamanda, bu gün Vətən Müharibəsi Memorial Kompleksinin və Zəfər Muzeyinin təməli qoyulacaq. Bu da keçən ilin dekabrında mənim Sərəncamımla həll olunan məsələdir. Bakıda, şəhərimizin ən gözəl yerlərinin birində İkinci Qarabağ müharibəsinin qəhrəmanlarının şərəfinə möhtəşəm abidə ucaldılacaqdır. Onu da bildirməliyəm ki, bu gün saat 12-də bütün ölkə üzrə bir dəqiqəlik sükut elan ediləcəkdir.

İkinci Qarabağ müharibəsi bizim şanlı tariximizdir. Bu Qələbə tarixdə əbədi qalacaq. Azərbaycan Silahlı Qüvvələri 44 gün ərzində düşmən ordusunu məhv edərək öz ərazi bütövlüyünü bərpa etdi. Mən dəfələrlə demişdim ki, Azərbaycan xalqı heç vaxt işğalla barışmayacaq. Dəfələrlə demişdim ki, nəyin bahasına olursa-olsun biz öz torpaqlarımızı geri qaytaracağıq. Dəfələrlə demişdim ki, düşmən öz xoşu ilə torpaqlarımızdan çıxmasa, biz onu torpaqlarımızdan qovacağıq və belə də oldu. Biz Birinci Qarabağ müharibəsindəki məğlubiyyətlə barışmadıq, güc topladıq, bütün gücləri səfərbər etdik, ordumuzu gücləndirdik, ölkə iqtisadiyyatını gücləndirdik, ölkəmizin nüfuzunu qaldırdıq və öz tarixi missiyamızı şərəflə

yerinə yetirdik. Biz düşməni torpaqlarımızdan qovduq və ədaləti, beynəlxalq hüququ bərpa etdik. Biz milli ləyaqətimizi bərpa etdik. Bu gün Azərbaycan xalqı müzəffər xalq kimi yaşayır. Bu gün Azərbaycan dövləti qalib dövlət kimi yaşayır. Biz bundan sonra müzəffər xalq və qalib dövlət kimi əbədi yaşayacağıq.

Ermənistan döyüş meydanında məğlub olarkən yenə də ən çirkin əməllərə əl atdı, mülki şəxslərə qarşı hərbi təxribat törətdi. Yüzdən çox mülki şəxs erməni faşizminin qurbanı oldu. Bizim şəhər və kəndlərimiz müntəzəm olaraq daim atəş altında idi. Ermənistan qadağan olunmuş silahlardan istifadə edirdi, ağ fosforlu bombalardan istifadə edirdi, ballistik raketlərdən istifadə edirdi. Ancaq heç nə bizi dayandıra bilməzdi. Azərbaycan xalqı əzm, iradə, cəsarət göstərərək bütün bu təxribatlara sinə gərdi. Bizi heç kim və heç nə dayandıra bilməzdi. Müharibə dövründə dəfələrlə Azərbaycan xalqına müraciət edərək deyirdim ki, heç kim və heç nə bizi dayandırmayacaq. Biz ədalət savaşına çıxmışıq. Biz ləyaqət savaşına çıxmışıq. Biz milli qürur savaşına çıxmışıq. Biz müqəddəs savaşa çıxmışıq.

Müharibə dövründə hamımız bir şüarla yaşayırdıq - öldü var, döndü yoxdur. Azərbaycan xalqı Azərbaycan Ordusunun arxasında möhkəm dayanaraq ordumuza əlavə güc verirdi. Günahsız insanların həlak olması, şəhər və kəndlərimizin dağıdılması Azərbaycan xalqının iradəsini qıra bilmədi. Biz hər gün irəli gedirdik, hər gün qələbə qazanırdıq, hər gün yeni uğurlar haqqında məlumatlar daxil olurdu. 44 gün ərzində bir gün də olmayıb ki, biz geriyə addım ataq. Ancaq mənfur düşmən, - baxmayaraq ki, onların əlində əlverişli mövqelər var idi, ərazinin relyefi onlara böyük üstünlük təşkil edirdi, baxmayaraq ki, 30 il ərzində 5-6 xətdən ibarət müdafiə istehkamları qurulmuşdu, - geri getməyə məcbur olmuşdur. 44 günlük müharibə zamanı Azərbaycan Silahlı Qüvvələrində bir nəfər də olsun fərari olmamışdır. Ancaq Ermənistan ordusunda 10 mindən çox fərari olmuşdur. Biz şəhidlərimizlə, qazilərimizlə fəxr edirik, eyni zamanda, Vətən müharibəsində qəhrəmanlıq göstərmiş hərbçilərimizlə, əsgər-zabitlərimizlə fəxr edirik. Onların qəhrəmanlığı, onların fədakarlığı heç vaxt unudulmayacaq. Biz bütün dünyaya göstərdik ki, Azərbaycan xalqı böyük xalqdır, Azərbaycan xalqı bu ədalətsizliklə heç vaxt barışmaq fikrində deyildi.

44 günlük Vətən müharibəsi milli iradə, milli ruh, milli ləyaqət təntənəsi idi. Biz Qələbəni döyüş meydanında qazandıq. 300-dən çox şəhər və kənd döyüş meydanında işğaldan azad edildi. Biz qan tökərək, şəhidlər verərək bu Qələbəni əldə etdik və düşməni məcbur etdik ki, bizim qabağımızda diz çöksün və kapitulyasiya aktına imza atsın. Həmin düşmən ki, 30 il ərzində bizə meydan oxuyurdu, 30 il ərzində Azərbaycan xalqının şərəf və ləyaqətini tapdalamağa çalışırdı. Azğınlaşmış, harınlamış, quduzlaşmış, qudurmuş düşmən bizim qabağımızda diz çökdü, ağ bayraq qaldırdı, təslim oldu və məcbur oldu ki, noyabrın 9-dan 10-na keçən gecə kapitulyasiya aktına imza atsın. Bunun nəticəsində yüzlərlə şəhər və kənd bir güllə atmadan, bir şəhid vermədən geri qaytarıldı.

Beləliklə, Azərbaycan öz ərazi bütövlüyünü bərpa etdi. Biz müharibəni hərbi-siyasi yollarla həll etdik, müharibə arxada qaldı, Dağlıq Qarabağ münaqişəsi də tarixdə qaldı. Azərbaycanda "Dağlıq Qarabağ" adlı inzibati ərazi mövcud deyil və əgər kimsə "Dağlıq Qarabağ" adlı ölünü diriltmək istəyirsə, onu öz ərazisində diriltsin, öz ərazisində "Dağlıq Qarabağ" adlı qurum yaratsın, respublika yaratsın, cəmiyyət yaratsın. Biz də onu tanıyarıq, ancaq Azərbaycanda yox! Bu məsələ öz həllini tapdı. Bunu mən deyirəm - Azərbaycanın Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı. Hər kəs bu sözlərlə hesablaşmalıdır və hesablaşacaqdır.

44 gün ərzində bizə ən böyük dəstək verən qardaş Türkiyəyə bu gün - Anım Günündə öz dərin təşəkkürümü bildirmək istəyirəm. Qardaş Türkiyə və qardaş türk xalqı müharibənin ilk saatlarından Azərbaycanla həmrəy oldular, Azərbaycana öz dəstəyini göstərdilər. Türkiyə rəhbərliyi və əziz qardaşım Prezident Rəcəb Tayyib Ərdoğan tərəfindən verilən açıqlamalar bizə çox böyük siyasi dəstək oldu, bizə əlavə güc verdi və biz bunu heç vaxt unutmayacağıq. 44 günlük Və-

tən müharibəsi bütün dünyaya Türkiyə-Azərbaycan birliyini bir daha göstərdi.

Bütün digər ölkələr ki, bizə siyasi dəstək göstərdilər, biz onlara da minnətdarıq. Bilirəm ki, xarici ölkələrdə yaşayan milyonlarla azərbaycanlının da ürəyi tarixi Vətəni ilə bir döyünürdü, onlar hər gün gedən döyüşləri izləyirdilər, bizim uğurlarımıza sevinirdilər. Onu da bildirməliyəm ki, 44 gün ərzində və ondan sonra, hətta bu günə qədər mən minlərlə məktub alıram. Həm Azərbaycan vətəndaşlarından, həm dünya azərbaycanlılarından, həm də bizə dost olan müxtəlif ölkələrin vətəndaşlarından dəstək məktubları alıram, həmrəylik məktubları alıram. Müharibədən bir il keçməsinə baxmayaraq, artıq bütün beynəlxalq aləm bizim Qələbəmizlə razılaşıb, bunu qəbul edib. Bu gün bölgədə, o cümlədən Azərbaycan-Ermənistan münasibətlərində gündəliyi formalaşdıran tərəf də Azərbaycandır.

44 gün ərzində biz təkcə öz ərazi bütövlüyümüzü bərpa etmədik, təkcə düşməni torpağımızdan qovmadıq, təkcə milli ləyaqətimizi bərpa etmədik, biz erməni faşizminin başını əzdik. Bu gün azad edilmiş torpaqlara gələn hər bir insan erməni vəhşiliyinin təzahürlərini öz gözləri ilə görür. Bizim bütün şəhərlərimiz yerlə-yeksan edilib, bütün tarixi abidələrimiz, məscidlərimiz ermənilər tərəfindən ya tam dağıdılıb, ya da təhqir olunub. 67 məsciddən 65-i tamamilə dağıdılıb, qalan yarıdağılmış məscidlərdə mənfur düşmən bizi təhqir etmək üçün, bütün dünya müsəlmanlarını təhqir etmək üçün heyvan saxlayırdı, inək, donuz saxlayırdı. Mən əminəm ki, dünya müsəlmanları buna adekvat reaksiya verəcəklər. Mən bir çox müsəlman ölkələrindən bu məsələ ilə bağlı məktublar alıram. Biz işğal dövründəki erməni vəhşiliyi ilə bağlı, erməni faşizmi ilə bağlı əməli işlər aparırıq, bütün dünyanı məlumatlandırırıq və məlumatlandıracağıq. Ona görə də bizim Qələbəmiz qeyd etdiyim kimi, erməni faşizmi üzərində əldə edilmiş Qələbədir.

Ermənistanda hakimiyyət dəyişikliyi olur və olubdur, ancaq düşmənin xisləti dəyişmir. Ermənistanda tüğyan edən azərbaycanofobiya, islamofobiya psixi xəstəlik dərəcəsinə çatmışdır. Azərbaycanlılara qarşı olan nifrət orada rəsmi ideologiya kimi bərqərar edilib. Əks təqdirdə, bu qədər vəhşilik törədilməzdi. Azad edilmiş torpaqlara hər gələn insan dəhşətə gəlir ki, bunu törədən insan deyil. Mən hətta deyə bilərəm ki, bunu törədən heyvan da deyil. Bunu törədən azğınlaşmış, quduzlaşmış, azərbaycanofob kütlədir, qəbilədir. Buna başqa ad vermək olmaz və bütün dünya bunu görməlidir. Ermənistanın havadarları bunu görməlidirlər. Görmək istəməsələr də, görməlidirlər və görəcəklər, biz göstərəcəyik, bütün dünyaya göstərəcəyik ki, biz hansı bəlanın dərsini verdik, biz bölgəmizi hansı bəladan xilas etdik. 30 il ərzində bizim bütün tarixi abidələrimizi, milli sərvətlərimizi, təbii resurslarımızı talayan, dağıdan düşmənə dərs verilməli idi, yoxsa yox?! Buna baxmayaraq, müharibədən əvvəl mən dəfələrlə demişdim ki, əgər Ermənistan rəhbərliyi öz xoşu ilə, beynəlxalq hüququn norma və prinsiplərinə riayət edərək torpaqlarımızdan çıxarsa, müharibə təbii ki, istisna ediləcəkdir. Müharibə dövründə də mən bunu dəfələrlə demişəm. Demişəm ki, Ermənistan rəhbərliyi bizə tarix versin, hansı gündə hansı torpağımızdan çıxır və biz müharibəni dayandırmağa hazırıq. Ancaq bunu etmədilər. 44 gündən sonra - artıq Ermənistan ordusunun beli qırılandan, biz alınmaz qala sayılan Şuşanı və ardınca 70-dən çox kəndi işğalçılardan azad edəndən sonra düşmən məcbur qalıb təslim olub. Bu dərs əbədi dərsdir, bunu heç kim yaddan çıxarmasın!

Erməni faşizmi məhv edilib, ancaq onun təzahürləri görünməkdədir. Bu, çox təhlükəli tendensiyadır, ilk növbədə, Ermənistan dövləti üçün. Mən bunu demişəm, bu gün Anım Günündə şəhidlərimizin əziz xatirəsi önündə bir daha deyirəm, əgər biz görsək ki, erməni faşizmi baş qaldırır, əgər biz görsək ki, xalqımıza, dövlətimizə yeni təhlükə mənbəyi yaranır, heç tərəddüd etmədən erməni faşizminin başını bir daha əzəcəyik. Bunu hər kəs bilsin! Müharibənin və Qələbənin rəmzi olan "Dəmir yumruq" yerindədir, bunu heç kim unutmasın!

Əziz həmvətənlər, Anım Günündə bütün şəhidlərimizin xatirəsi qarşısında, Birinci və İkinci Qarabağ müharibələrinin

şəhidlərinin ruhu qarşısında bir daha baş əyir, onlara Allahdan rəhmət diləyirəm. Onların yaxınlarına, qohumlarına deyirəm ki, mən demişdim, onların qanı yerdə qalmayacaq və qalmadı. Biz onların qanını aldıq! Mən demişdim ki, biz onların qisasını döyüş meydanında alacağıq, belə də oldu. Bu Qələbəni bizə bəxş edən qəhrəman əsgər və zabitlərimiz bizim qürur mənbəyimizdir. Onların qəhrəmanlığı, onların şücaəti, fədakarlığı artıq dastana çevrilib.

Biz bundan sonra qalib ölkə, müzəffər xalq kimi yaşayacağıq və azad edilmiş torpaqları quracağıq, bərpa edəcəyik. O torpaqlara artıq həyat qayıdır, insanlar qayıdır. Bu qayıdışı ən qısa müddət ərzində təmin etmək bu gün bizim başlıca vəzifəmizdir. Öz müraciətimi Qələbəmizin ayrılmaz hissəsi olan sözlərlə tamamlamaq istəyirəm: Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!

# 27 sentyabr Azərbaycanda Anım Günüdür

**Sentyabrın 27-si Azərbaycanda Anım Günüdür. Prezidenti İlham Əliyevin 2020-ci il 2 dekabr tarixli Sərəncamına əsasən təsis edilən Anım Günü Vətən müharibəsində qəhrəmancasına döyüşmüş, ölkəmizin ərazi bütövlüyü yolunda canlarından keçmiş etmiş əsgər və zabitlərimizə, bütün şəhidlərimizə dərin ehtiramın ifadəsidir.**




Həmin gün səhər saatlarından başlayaraq respublikamızın bütün şəhər və rayonlarında, o cümlədən azad edilmiş ərazilərimizdə anım mərasimləri keçirilib, xalqımız Vətən uğrunda canlarını fəda etmiş qəhrəman şəhidlərimizin xatirəsini qürurla yad edib.

Vətən müharibəsi bizim şanlı tariximiz, şəhidlər və qazilər qürur mənbəyimizdir. Respublikamızın suverenliyi və ərazi bütövlüyü uğrunda gedən mübarizədə qəhrəmanlıq göstərən əsgər və zabitlərimiz, arxa cəbhədə çalışan mülki insanlarımız, bütövlükdə xalqımız əzm və iradə, bir yumruq kimi birlik və həmrəylik nümayiş etdirərək, düşmənə sarsıdıcı zərbələr endirib. Azərbaycan Ordusunun əks-hücumları qarşısında aciz qalan düşmənin günahsız mülki insanları hədəfə alması, çoxsaylı müharibə cinayətləri xalqımızı qələbə əzmini sarsıda bilməyib.

Biz qurtuluş savaşında minlərlə şəhid vermişik, həmvətənlərimiz arasında itkin düşənlər, yaralanaraq sağlamlığını itirənlər var. Torpaqlarımız işğaldan qəhrəman şəhidlərimizin, əsgər və zabitlərimizin, qazilərimizin qanı-canı bahasına azad edilib. Müzəffər Ordumuzun bu gün yazdığı tarix sabahımız üçün möhkəm bünövrədir.

Prezidentin Sərəncamında deyildiyi kimi, xalqımız və dövlətimiz mübariz oğul və qızlarının şücaətini yüksək qiymətləndirir, bütün şəhidlərimizin ruhuna ehtiramla yanaşır, xatirəsini uca tutur. Bu, Vətən müharibəsində qəhrəmancasına döyüşmüş, Azərbaycan Bayrağını işğaldan azad edilən torpaqlarımızda dalğalandırmış, ölkəmizin ərazi bütövlüyü yolunda canlarını fəda etmiş əsgər və zabitlərimizə, bütün şəhidlərimizə vəfa borcumuzdur.

Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev Vətən uğrunda canından keçən şəhidlərimizin xatirəsinə daim yüksək ehtiram göstərir, onların xatirəsinin əbədiləşdirilməsini, eləcə də qazilərimizin müalicəsini və sağlamlıqlarının bərpasını diqqət mərkəzində saxlayır. Dövlətimizin başçısı Vətən müharibəsinin başa çatması ilə bağlı xalq müraciətində bu

barədə deyib: "Birinci Qarabağ və İkinci Qarabağ müharibələrinin şəhidləri bizim qəlbimizdə əbədi yaşayacaq. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Onların qəhrəmanlığı, fədakarlığı nəticəsində biz torplaqlarımıza qayıdırıq. Allah bütün yaralı hərbçilərimizə şəfa versin, onlar tezliklə sağalıb normal həyata dönsünlər, onların sağalması üçün də əlimizdən gələni edirik və edəcəyik. Hətta ən ağır vəziyyətdə olan yaralı əsgərimiz, zabitimiz bilməlidir, əlimizdən gələni edəcəyik ki, onu normal həyata qaytaraq. Biz bu Qələbəyə görə onlara borcluyuq".

Birinci vitse-prezident Mehriban xanım Əliyeva da şəhidlərimizin xatirəsinin əbədiləşdirilməsi, şəhid ailələrinin, qazilərin hərtərəfli qayğı ilə əhatə olunmasına xüsusi diqqət yetirir, onun rəhbərlik etdiyi Heydər Əliyev Fondu bu istiqamətdə genişmiqyaslı tədbirlər həyata keçirir. Mehriban xanım Əliyeva şəhidlərimizə hörmət və ehtiramını belə ifadə edib: "Azərbaycan xalqının igid oğulları Zəfər naminə, Azərbaycanın gələcəyi naminə canlarından keçib. Onların hər biri əsl qəhrəman, rəşadət və qorxmazlıq nümunəsidir... Şəhidlərimizin qanı nahaq yerə tökülmədi - biz tarixi ədaləti bərpa etdik, müqəddəs Qələbə qazandıq. Bu Qələbə xalqımızın tarixinə əbədi həkk olundu. Hər birimiz bu Zəfərin nəyin bahasına qazanıldığını yadda saxlamağa borcluyuq. Biz Vətən müharibəsi şəhidlərini heç vaxt unutmayacağıq. Onlar bizim qəlbimizdə daim yaşayacaq".

Bu gün Azərbaycan xalqı, bütün dünya azərbaycanlıları müqəddəs Vətənimiz uğrunda canından keçən şəhidlərimizin xatirəsini dərin ehtiramla anır. Küçə, prospekt və meydanlarda, evlərin balkonlarında üçrəngli bayrağımız dalğalanır. Məscidlərdə, kilsələrdə, sinaqoqlarda Azərbaycanın ərazi bütövlüyü uğrunda canından keçmiş Vətən övladlarının ruhuna dualar oxunur. İnsanlar Anım Gününü həm də zəfər və iftixar günü kimi qeyd edirlər.

Saat 12:00-da ölkə ərazisində şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Axşam saatlarında isə xüsusi işıqlandırma ilə bir sıra binalarda, o cümlədən Heydər Əliyev Mərkəzinin binasının və "Alov qülləri"nin üzərində Azərbaycan bayrağı əks olunub. Mərkəzi və yerli icra hakimiyyəti strukturları tərəfindən gün boyu silsilə tədbirlər təşkil edilib, eləcə də xarici ölkələrdə anım mərasimləri keçirilib.

**AzərTAc**

# Birinci vitse-prezident Mehriban Əliyeva Anım Günü ilə bağlı paylaşım edib






**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi instaqram səhifəsində 27 sentyabr - Anım Günü ilə əlaqədar paylaşım edib.**

Paylaşımda deyilir:

Əziz bacılar və qardaşlar!

Bu gün biz Vətən müharibəsi şəhidlərinin xatirəsini yad edirik. Şanlı Zəfər naminə həyatlarını qurban vermiş qəhrəmanlarımızı anırıq. Onlar əsl vətənpərvərlik və Vətənə sədaqət nümunəsi nümayiş etdirərək öz qorxmazlığı, cəsarəti, möhkəm iradəsi və ruh yüksəkliyi sayəsində işğalçını darmadağın edib, ölkəmizin ərazi bütövlüyünü bərpa ediblər. Adları əbədi olaraq Azərbaycan dövlətinin tarixinə həkk olunmuş bu cür igid oğullar böyüdüb tərbiyə etmiş valideynlərə təşəkkürümü bildirir, Uca Tanrıdan onlara səbir diləyirəm. Müharibə günlərində həlak olmuş günahsız vətəndaşlarımızın xatirəsini yad edirik. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Uca Tanrı hər zaman xalqımızı qorusun!

# Prezident İlham Əliyev və Birinci xanım Mehriban Əliyeva Vətən müharibəsi şəhidlərinin xatirəsinə ehtiram əlaməti olaraq keçirilən yürüşdə iştirak ediblər








**Vətən müharibəsi zamanı Azərbaycanın ərazi bütövlüyü uğrunda döyüşlərdə həlak olmuş əsgər və zabitlərimizə, qətlə yetirilən mülki vətəndaşlara və itkin düşmüş soydaşlarımıza ehtiram əlaməti olaraq sentyabrın 27-də - Anım Günündə Bakı şəhərində yürüş təşkil edilib.**

Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva yürüşdə iştirak ediblər.

Sonra dövlətimizin başçısı Vətən Müharibəsi Memorial Kompleksinin və Zəfər Muzeyinin təməlini qoyub.

Yerli vaxtla saat 12:00-da bütün ölkə ərazisində şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Təməlqoyma mərasimindən sonra Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Dənizkənarı bulvar ərazisinə gələrək qəhrəman şəhidlərimizin əziz xatirəsini ehtiramla yad ediblər.

Xəzər dənizinin sahil sularında sıralanan hərbi gəmilərindən fasiləsiz fit səsi verilib, toplardan yaylım atəşi açılıb.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Fəxri xiyabanda ulu öndər Heydər Əliyevin məzarını ziyarət ediblər.



# 15 Sentyabr - Bakının işğaldan azad olunmasından 103 il ötür

**Sentyabrın 15-də Bakı şəhərinin bolşevik-daşnak qüvvələrindən azad edilməsinin 103-cü ildönümü tamam olur. 1918-ci ildə qazanılmış bu zəfər Azərbaycan Xalq Cümhuriyyətinin tarixinə mühüm hadisə kimi yazılıb. Qafqaz İslam Ordusunun Bakını bolşevik-daşnak işğalından azad etməsi tarixi-siyasi və mənəvi-psixoloji əsaslara söykənməklə Türkiyə-Azərbaycan qardaşlığının rəmzinə çevrilib. Babalarımızın miras qoyduğu bu qardaşlıq köməyi, silah qardaşlığı sonrakı illər ərzində də bir millət, iki dövlətin taleyində zaman-zaman öz təzahürünü tapıb.**



*Bakı, 15 sentyabr 2018-ci il. Bakının azad edilməsinin 100 illiyinə həsr olunmuş parad*



*Azərbaycan və Türkiyə prezidentləri paradda*

**Tarixə qısa ekskurs**

Bolşevik Rusiyası Birinci Dünya müharibəsindən çıxdıqdan sonra geri çəkilən rus ordusu ilə birlikdə erməni silahlı dəstələri də Cənubi Qafqaza gəldilər. Rusiya hərbçiləri silahlarını həmin vaxta qədər Anadoluda, Borçalıda, İrəvan quberniyasında, Cənubi Azərbaycan və indiki Azərbaycan Respublikası ərazisində qanlar tökən erməni bandalarına vermişdilər. Həmin vaxt Bakıda qurulan sovet hakimiyyəti dinc türk-müsəlman əhaliyə zülm edirdi. 1918-ci ilin martında Bakıda və Azərbaycanın digər yerlərində azərbaycanlılara qarşı törədilən soyqırımının qarşısını nə Transqafqaz Komissarlığı, nə də Transqafqaz Seymi ala bilmədi.

1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyəti qurulanda Bakı yadellilərin əlində idi. Osmanlı dövləti iyunun 4-də Batumda imzaladığı müqavilə ilə Azərbaycana yardım etməyi üzərinə götürmüşdü. Cümhuriyyətin müraciəti əsasında Osmanlının hərbi naziri Ənvər paşanın qardaşı Nuru paşanın komandanlığı ilə Qafqaz İslam Ordusu adlandırılan silahlı qüvvə Azərbaycan istiqamətində yola çıxdı.

Qafqaz İslam Ordusunun Bakıya yürüşünün qarşısını almaq üçün hərəkətə keçən bolşevik Rusiyası müharibədə Osmanlının müttəfiqi olan Almaniya ilə avqustun 27-də müqavilə imzaladı. Müqaviləyə görə, Almaniya Bakı neftindən alacağı bəlli pay müqabilində Osmanlı qoşunlarının Kür çayını keçməməsi üçün öhdəlik götürdü. Lakin bu oyunlar Qafqaz İslam Ordusunun yürüşünü

dayandıra bilmədi. Bakı şəhəri sentyabrın 15-də azad edildi. Sentyabrın 17-də isə Azərbaycan hökuməti Gəncədən Bakıya köçdü. Şəhərin azad edilməsi Bakıya dair iyrənc planları darmadağın etdi.

Qeyd edək ki, Azərbaycan dövlət müstəqilliyini bərpa edəndə də bizi ilk olaraq Türkiyə tanıdı. Bu da qardaşlığın bir nümunəsi oldu. Bakı Türk Şəhidliyi abidəsi isə Qafqaz İslam Ordusu döyüşçülərinin xatirəsinə ehtiramdır.

**Azərbaycan torpağında uyuyan türk şəhidlər**

Bakı şəhərinin azad edilməsinin yüz illiyi 2018-ci ildə Azadlıq meydanında möhtəşəm paradla qeyd edildi. Azərbaycana gəlmiş Türkiyə lideri Rəcəb Tayyib Ərdoğan bu möhtəşəm tədbiri Prezident İlham Əliyevlə birgə izlədi. Eyni zamanda, iki dövlətin ordularının əsgərləri Azadlıq meydanında yan-yana addımladı. Prezident İlham Əliyev paraddakı çıxışında Qafqaz İslam Ordusunun Nuru paşanın rəhbərliyi altında sentyabrın 15-də şiddətli döyüşlər nəticəsində Bakının azad edilməsini tarixi hadisə adlandıraraq dedi: "Qədirbilən Azərbaycan xalqı bunu heç vaxt unutmayacaq, şəhidlərin əziz xatirəsini daim öz qəlbində yaşadacaqdır. ...Onların məzarları yan-yanadır. ... onların xatirəsi bizim qəlbimizdədir və onların göstərdikləri qəhrəmanlıq bu gün Türkiyə və Azərbaycan birliyini daha da möhkəmləndirir".

Həmin paradda çıxış edən Türkiyə Prezidenti vurğuladı ki, şəhidlər fədakarlıqları və cəsarətləri ilə özlərindən sonra nəsildən-nəslə qürurla xatırlanacaq şanlı bir dastan yazaraq, Türkiyə və Azərbaycanın əbədi qardaşlığının da rəmzi oldular. Türkiyə dünyanın 34 ölkəsində 78 şəhid məzarlığı olan bir ölkədir. Türkiyə Azərbaycan uğrunda 1132 şəhid verib. Buradakı məzarlarda yanaşı uyuyan şəhidlərimiz, eyni zamanda, ölkələrimiz arasındakı birgə taleyin təmsilçiləridir. Türkiyə və Azərbaycan tarixi bir, mədəniyyəti bir, dili bir, dini bir iki qardaş ölkədir.

"Bir əsr əvvəl burada aparılan mübarizə bizim qardaşlığımızın, dostluğumuzun, birlik və bərabərliyimizin də rəmzidir. Tarixi bilmədən, bir əsr əvvəl Nuru paşanın və əsgərlərinin minlərlə kilometr uzaqdan Bakıya və Gəncəyə gəlmələrinin səbəblərini dərk etmədən Azadlıq meydanındakı bu həmrəylik mənzərəsinin mənasını anlaya bilmərik", - deyən Rəcəb Tayyib Ərdoğan bir əsr əvvəl azərbaycanlıların işğal altında zülm çəkdiyini, Nuru paşanın və Qafqaz İslam Ordusunun Bakıya və Gəncəyə gəlişinin əhali arasında böyük ümid doğurduğunu xatırlatdı.

Bu gün Türkiyə-Azərbaycan əlaqələri ən yüksək zirvədədir. Bunu dövlətimizin başçısı çıxışlarında dəfələrlə vurğulayıb: "Məncə, dünyada ikinci belə nümunə yoxdur ki, iki ölkə bir-birinə bu qədər yaxın olsun, bu qədər bir-birinə arxa-dayaq olsun".

Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft-qaz kəmərləri, TANAP, Bakı-Tbilisi-Qars dəmir yolu kimi transmilli layihələr iki qardaş ölkə arasında yeni körpülər olmaqla, bütövlükdə Avrasiyanın enerji və nəqliyyat xəritəsini yaradır.

**Tarix təkrar olunur**

Ötən il sentyabrın 27-də Azərbaycan Vətən müharibəsinə, qurtuluş savaşına qalxaraq 30 ilə yaxın erməni işğalı altında qalmış torpaqlarını azad etdi. Bu şanlı Qələbədə Türkiyə liderinin, türk xalqının mənəvi-siyasi dəstəyi mühüm rol oynadı. Azərbaycanda bunu yüksək qiymətləndirir, minnətdarlıq duyğuları ilə xatırlayırlar.

Vətən müharibəsinin salnaməsini vərəqləsək, aydın görərik ki, müharibənin ilk günlərindən, ilk saatlarından Türkiyə Azərbaycanın yanında olub. Rəcəb Tayyib Ərdoğan Azərbaycanın haqq işinə öz dəstəyini verib, Türkiyənin hər zaman Azərbaycanın yanında olduğunu və olacağını bəyan edib. Qələbəmizdə mühüm rol oynayan bu siyasi və mənəvi dəstək hər bir Azərbaycan vətəndaşını qürurlandırır, sevindirir.

Vətən müharibəsinin hər günü bizim şanlı tariximizdir. Həmin günlərdə paytaxtımız, şəhər və qəsəbələrimiz bir millət, iki dövlətin rəmzi olaraq, Azərbaycan və Türkiyə bayraqları ilə bəzədilmişdi.

2020-ci il dekabrın 10-da keçirilən Zəfər paradında Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın, Türkiyədən gəlmiş



böyük nümayəndə heyətinin, əsgər və zabitlərin iştirakı birliyimizi, dostluğumuzu və qardaşlığımızı bir daha bütün dünyaya nümayiş etdirdi. "Bu gün Azərbaycanın milli şairi, böyük mücahid Əhməd Cavad bəyin ruhunun şad olduğu gündür. Bu gün Nuru paşanın, Ənvər paşanın, Qafqaz İslam Ordusunun igid əsgərlərinin ruhunun şad olduğu gündür. Bu gün Azərbaycan şəhidlərinin sərdarı Mübariz İbrahimovun ruhunun şad olduğu gündür. Bu gün hamımız üçün, bütün türk dünyası üçün zəfər və qürur günüdür", - dedi qardaş dövlətin lideri.

Dövlət başçıları İlham Əliyev və Rəcəb Tayyib Ərdoğanın imzaladıqları Şuşa Bəyannaməsi münasibətləri yeni səviyyəyə çıxarıb. Bəyannamənin bəndlərindən birində göstərilir: "Tərəflər müdafiə qabiliyyətlərinin və hərbi təhlükəsizliyin möhkəmləndirilməsinə yönələn şəxsi heyət mübadiləsini, birgə təhsil və təlimlərin keçirilməsini, iki ölkənin silahlı qüvvələrinin birlikdə fəaliyyət qabiliyyətinin artırılmasını, müasir texnologiyalara əsaslanan silah və sursatların idarə olunmasında sıx əməkdaşlığı və bu məqsədlə səlahiyyətli struktur və qurumların əlaqəli fəaliyyətinin təmin edilməsini təşviq edəcəklər. Azərbaycan və Türkiyə digər dost dövlətlərin orduları ilə birlikdə hərbi təlimlərin keçirilməsini dəstəkləyəcəklər".

Bu tarixi bəyannamə bir daha təsdiqləyir ki, kökləri dərin olan qardaşlığımız əbədidir. Biz birlikdə güclüyük!

Bir neçə gün əvvəl Laçın rayonunda Azərbaycan və Türkiyə xüsusi təyinatlılarının birgə döyüş atışlı taktiki təlimi keçirilib. Bu, xalqlarımızın, ordularımızın silah qardaşlığına ən yeni nümunədir.

Bu gün ən yüksək səviyyədə olan Azərbaycan-Türkiyə münasibətləri ulu öndər Heydər Əliyevin "Bir millət, iki dövlət" kəlamının fəlsəfəsini yetərincə əks etdirir və Azərbaycan-Türkiyə birliyinin sarsılmaz və əbədi olduğunu göstərir. Tarixi 103 il əvvələ, bəlkə də əsrlərin dərinliyinə gedib çıxan silah qardaşlığımız hər birimiz üçün qürur mənbəyi, güvənc yerimiz olaraq qalacaq.

**AzərTAc**

# Prezident İlham Əliyev Sumqayıt Məhkəmə Kompleksinin açılışını edib

**Sentyabrın 3-də Sumqayıt Məhkəmə Kompleksinin açılışı olub.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açılışda iştirak edib.

Ədliyyə naziri Fikrət Məmmədov kompleksdə yaradılan şərait barədə dövlətimizin başçısına məlumat verib.

Qeyd edək ki, ölkəmizdə digər sahələrdə olduğu kimi, məhkəmə sistemində də islahatlar uğurla davam etdirilir. Prezident İlham Əliyevin 2019-cu ildə imzaladığı Fərman bu sahədə mühüm "yol xəritəsi" olmaqla onun icrası ilə bağlı kompleks qanunvericilik və praktiki tədbirlər görülür. Yeni regional inzibati və kommersiya məhkəmələri təsis edilib, vahid məhkəmə təcrübəsinin formalaşdırılması üçün işlək mexanizmlər yaradılıb, məhkəmələrin və hakimlərin təminatı gücləndirilib. Bu sahədə infrastrukturun müasirləşdirilməsi üzrə görülən tədbirlər çərçivəsində yeni məhkəmə bina və komplekslərinin inşası, onların ən müasir İKT qurğuları ilə təchizi xüsusi yer tutur. Sumqayıt Məhkəmə Kompleksinin inşası da bu istiqamətində icra olunan layihələrdən biridir. Bu, respublikamızda inşa olunan sayca dördüncü məhkəmə kompleksidir.

Kompleks Azərbaycan Hökumətinin Dünya Bankı ilə birgə həyata keçirdiyi "Mütərəqqi ədliyyə xidmətləri və







müasir məhkəmə infrastrukturu" layihəsi çərçivəsində inşa olunub. Konseptual baxımdan yeni olan, öz funksionallığı ilə fərqlənən müasir Məhkəmə Kompleksi altı məhkəməni, o cümlədən Sumqayıt apellyasiya, inzibati, kommersiya və ağır cinayətlər, Sumqayıt şəhər, eləcə də müvəqqəti olaraq Qubadlı rayon məhkəmələrini əhatə edir. "Bir qapı" prinsipi ilə fəaliyyət göstərəcək məhkəmə kompleksi ədalət mühakiməsinin səmərəli həyata keçirilməsinə, vətəndaşların müraciət imkanlarının asanlaşdırılmasına xidmət edəcək.

Məhkəmə zallarında proseslərə "Elektron məhkəmə" informasiya sistemi və digər müasir İKT-lərin tətbiqi ilə daha keyfiyyətli baxılması və şəffaflığın təmin edilməsi üçün "Femida" sistemi quraşdırılıb. Burada 50-dək hakim, ümumilikdə isə 240 işçi fəaliyyət göstərəcək. Sumqayıt Məhkəmə Kompleksində yaradılmış müasir şərait təxminən 1 milyon 460 min əhaliyə yüksək səviyyədə məhkəmə xidmətləri göstərməyə imkan verəcək.

Prezident İlham Əliyevə ədliyyə və məhkəmə sahəsində tətbiq olunan növbəti rəqəmsal innovasiyalar barədə də məlumat verilib, bununla bağlı videoçarx nümayiş etdirilib.

Bildirilib ki, dövlətimizin başçısının sosial ədalətə əsaslanan islahatlarına, eləcə də birinci xanım Mehriban Əliyevanın inklüziv cəmiyyətin inkişafı üzrə təşəbbüslərinə uyğun olaraq Ədliyyə Nazirliyi tərəfindən innovasiyaların tətbiqinin genişləndirilməsi üzrə ardıcıl tədbirlər görülür. Bütün bu işlər vətəndaşların ədalət mühakiməsinə əlçatanlığının asanlaşdırılmasına, onlara yüksək keyfiyyətli hüquqi xidmətlərin göstərilməsinə, şəffaflığın artırılmasına, bütövlükdə məhkəmə hakimiyyətinə ictimai etimadın yüksəldilməsinə yönəlib.







# Anım Günü ilə bağlı Ədliyyə Nazirliyində tədbirlər keçirilib





**2020-ci il sentyabrın 27-də Ermənistanın Azərbaycana qarşı növbəti hərbi təcavüzünə cavab olaraq, işğal altındakı torpaqlarımızın azad edilməsi uğrunda Vətən müharibəsinin başlanmasından bir il ötür. Ölkə Prezidenti cənab İlham Əliyevin 2020-ci il 2 dekabr tarixli Sərəncamı ilə müharibədə qəhrəmancasına döyüşmüş, Azərbaycan Bayrağını işğaldan azad edilən torpaqlarımızda dalğalandırmış, ölkəmizin ərazi bütövlüyü yolunda canlarını fəda etmiş əsgər və zabitlərimizə, bütün şəhidlərimizə dərin ehtiram əlaməti olaraq 27 sentyabr - Azərbaycan Respublikasında Anım Günü təsis edilib.**

Bununla bağlı Ədliyyə Nazirliyində və struktur qurumlarda anım tədbirləri keçirilib, nazirliyin rəhbərliyi və kollektivi tərəfindən II Fəxri xiyabanda Vətən müharibəsi qəhrəmanlarının, o cümlədən şəhid ədliyyə işçisi Ruhin Xəlilovun məzarı ziyarət olunaraq əklillər qoyulub, əziz xatirələri ehtiramla anılıb. Ədliyyə orqanlarında onun xidməti dövründə fəaliyyət göstərdiyi iş otağında foto və sənədlərdən ibarət xatirə guşəsi yaradılıb.

Döyüşlərdə yaxın ailə üzvü şəhid olmuş və yaralanmış ədliyyə işçilərinin ailələrinə, məhkəmə aparatının əməkdaşlarına və könüllülərinə baş çəkilib, Şağan Reabilitasiya Pansionatında müalicə alan Vətən müharibəsi qazilərinin qayğıları ilə maraqlanılıb, ehsan təşkil olunub.

Nazirliyin aparatında keçirilən tədbirdə ədliyyə naziri Fikrət Məmmədov çıxış edərək ölkə Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə dövlətimizin hərbi-siyasi uğuru və ordumuzun qəhrəmanlığı sayəsində, şəhidlərimizin qanı, canı bahasına 30 il düşmən əsarətində qalan torpaqlarımızın işğaldan azad edildiyini, ərazi bütövlüyümüzün təmin olunduğunu vurğulayıb.

Bildirib ki, Ulu Öndər Heydər Əliyevin ən ümdə vəsiyyətini şərəflə yerinə yetirən dövlətimizin başçısının rəhbərliyi ilə doğma torpaqlarımız - Qarabağ və Şərqi Zəngəzur nəhəng bərpa-quruculuq işləri aparılmaqla yenidən dirçəlir, bu istiqamətdə respublikamızın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın fəal iştirakı ilə mühüm layihələr gerçəkləşdirilir.

Azərbaycan Respublikası Prezidentinin Anım Günü ilə bağlı müraciətində vurğuladığı kimi, bu gün Azərbaycan xalqı müzəffər xalq, qalib dövlət kimi yaşayır və bundan sonra əbədi yaşayacaqdır.

Nazir Vətən müharibəsi iştirakçılarının sosial müdafiəsinin və rifahının yaxşılaşdırılması ilə bağlı görülən tədbirlərdən bəhs edərək şəhid ailələrinin və yaralı hərbçilərimizin



Şağan Reabilitasiya Pansionatında müalicə alan Vətən müharibəsi qazilərinə baş çəkilib


Cəzaçəkmə müəssisələrində şəhidlərimizin ruhuna dualar oxunub, namaz qılınıb

hərtərəfli dövlət qayğısı ilə əhatə olunduğunu bildirib.

Diqqətə çatdırıb ki, müharibə başlanan andan ədliyyə və məhkəmə işçiləri də döyüşlərdə, o cümlədən könüllü iştirak edib, fədakarlıq göstərib, ölkə Prezidenti tərəfindən 100-dən çox medallarla təltif olunublar. Həmçinin ordumuzla həmrəylik nümayiş etdirərək, hərbçilərimizə, yaralananlara və şəhid ailələrinə ilk gündən öz dəstəyini əsirgəməyib, Azərbaycan Ordusuna Yardım Fonduna, "YAŞAT" və Qarabağ Dirçəliş fondlarına könüllü vəsaitlər köçürüblər.

F.Məmmədov Anım Günü ilə əlaqədar xarici ölkələrin Ədliyyə Nazirliklərinə və nüfuzlu beynəlxalq təşkilatlara müraciətlərin göndərildiyini vurğulayıb, post-konflikt dövründə Vətən müharibəsi iştirakçılarının, onların və şəhidlərimizin ailə üzvlərinin müraciətlərinə xüsusi həssaslıqla yanaşılaraq qaldırılan məsələlərin həlli üzrə zəruri tədbirlər görüldüyünü, ötən müddət ərzində 60-dan çox belə şəxslərin ədliyyə orqanlarında müvafiq işlə təmin edildiyini bildirib.


Erməni silahlı birləşmələri tərəfindən Gəncə şəhərinə atılmış raket zərbələri nəticəsində dağıdılmış əraziyə baş çəkilib

Ədliyyə işçiləri saat 12:00-da Vətən müharibəsi şəhidlərinin əziz xatirəsini 1 dəqiqəlik sükutla yad ediblər.

Ədliyyə orqanlarında Vətən müharibəsində iştirak etmiş ədliyyə işçiləri və könüllüləri ilə yığıncaqlar keçirilib, ağacəkmə aksiyası təşkil olunub, cəzaçəkmə müəssisələrindəki dini ibadət yerlərində şəhidlərimizin ruhuna dualar oxunub, namaz qılınıb və ehsan verilib.

Tədbirlərdə Müzəffər Ali Baş Komandanın ətrafında daim sıx birləşən ədliyyə işçilərinin qalib Azərbaycan Ordusunun qəhrəmanlığından və şücaətindən qürur hissi keçirdikləri, şəhidlərimizin xatirəsinin xalqımızın qəlbində əbədi yaşayacağı bildirilib.

Anım Günü ilə bağlı həmçinin, xüsusi döş nişanı hazırlanıb, nazirliyin muzeylərində Böyük Qələbəmizə, şəhidlərimizin xatirəsinə həsr olunan ekspozisiyalarla tanışlıq olub, kinozalda filmlər, slaydlar nümayiş etdirilib, ədliyyə işçiləri və hakimlər tərəfindən mətbuatda çıxışlar edilib, nazirliyin təlim-tədris müəssisələrində xüsusi dərslər keçirilib, internet saytlarında və sosial şəbəkə səhifələrində məlumatlar paylaşılıb.

# Ədliyyə naziri tərəfindən vətəndaşların videoqəbulu keçirilib

**Ölkə Prezidenti cənab İlham Əliyevin vətəndaşların müraciətlərinə, xüsusilə şəhid ailələrinin və hərbçilərin qayğılarına həssaslıqla yanaşılması ilə bağlı tapşırıqları Ədliyyə Nazirliyi tərəfindən daim diqqətdə saxlanılır.**

Bununla əlaqədar nazirlik tərəfindən pandemiya şəraiti nəzərə alınaraq vətəndaşların müraciətlərinə elektron qaydada baxılması təmin edilir, mütəmadi videoqəbullar keçirilir.

Sentyabrın 23-də ədliyyə naziri Fikrət Məmmədov paytaxtda və müxtəlif bölgələrdə yaşayan vətəndaşları videoformatda qəbul edib, onların ədliyyə fəaliyyəti ilə bağlı müraciətlərini dinləyib.

Regional ədliyyə idarələri vasitəsilə video-



qəbula qoşulan vətəndaşların müraciətlərində qaldırdıqları məsələlərin həlli ilə bağlı zəruri tədbirlərin görülməsi üçün nazirliyin aidiyyəti məsul işçilərinə müvafiq tapşırıqlar verilib.

Qəbulun videoformatda təşkili vətəndaşlar tərəfindən məmnunluqla qarşılanıb. Onlar qayğılarına həssaslıq və diqqətlə yanaşılmasına görə ölkə Prezidentinə minnətdarlıqlarını ifadə ediblər.

# Məhkəmə-hüquq sistemi müasir çağırışlara uyğun təkmilləşir





**Sentyabrın 24-də Ədliyyə Nazirliyi və Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsi tərəfindən Sumqayıt Məhkəmə Kompleksində "Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə məhkəmə-hüquq sisteminin inkişafı: çağırışlar, islahatlar və innovasiyalar" mövzusunda ictimai təqdimat keçirilib.**

Tədbirdə ədliyyə nazirinin müavini Toğrul Musayev, Milli Məclis sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli, Milli Məclisin İnsan hüquqları komitəsinin sədri Zahid Oruc, deputatlar, Vəkillər Kollegiyası Rəyasət Heyətinin sədri Anar Bağırov, Ədliyyə Nazirliyinin və Məh-





kəmə-Hüquq Şurası Aparatının rəhbər vəzifəli şəxsləri, hakimlər, vətəndaş cəmiyyəti institutlarının rəhbərləri və media nümayəndələri iştirak ediblər.

Təqdimatdan öncə ümummilli lider Heydər Əliyevin kompleksdəki barelyefi önünə gül dəstələri qoyularaq, Ulu Öndərin əziz xatirəsi ehtiramla yad edilib.

Tədbir iştirakçıları Sumqayıt Məhkəmə Kompleksində yaradılan müasir şəraitlə, o cümlədən ictimai və inzibati zonalar, məhkəmə iclas zalları, hakimlər üçün və digər otaqlarla, "Elektron məhkəmə" informasiya sistemi və tətbiq edilən rəqəmsal innovasiyalarla tanış olublar.

Sonra kompleksin akt zalında keçirilən ictimai təqdimatda əvvəlcə ədliyyə və məhkəmə sistemində innovasiyalara dair videoçarx nümayiş etdirilib. Bildirilib ki, nazirlik tərəfindən aparılan on minlərlə normativ sənədi ehtiva edən "Hüquqi aktların vahid elektron bazası" vasitəsilə hər kəs ödənişsiz olaraq, ani rejimdə qanunvericilik aktlarını əldə edə bilir. Böyük Zəfər nəticəsində işğaldan azad olunmuş ərazilərdə dayanıqlı məskunlaşmanın təmin edilməsi, həmçinin vətəndaşlara və dövlət orqanlarına zəruri xidmətlərin göstərilməsi məqsədilə 1500-ə yaxın icra hakimiyyəti nümayəndəliyinin nazirliyin informasiya resurslarına qoşulması ilə bölgə əhalisi barədə məlumatların elektron formatda, çevik və dəqiq qeydə alınması mümkün olub. Eyni zamanda, icra hakimiyyəti nümayəndəliklərinin "Elektron notariat" informasiya sisteminə qoşulması kənd təsərrüfatı təyinatlı torpaqların fermerlərin istifadəsinə verilməsini xeyli asanlaşdırıb. Ölkəmizin xaricdəki konsulluqlarının e-notariat sistemi vasitəsilə xidmətlər göstərməsi soydaşlarımızın rahatlığına yönəlib.

Həmçinin məlumat verilib ki, bələdiyyə fəaliyyətinin səmərəliliyinin artırılması, vətəndaşların bələdiyyələrə əlçatanlığının təmin olunması məqsədilə bələdiyyələrlə bağlı xüsusi portal hazırlanıb. Bununla yanaşı, vergi, sığorta, aliment və digər borclar üzrə məhkəmə qərarlarının çevik icrası məqsədilə ödənişlərin birbaşa bank hesablarına yönəldilməsi təşkil olunmaqla, bu sahədə işin səmərəsi xeyli artıb. "Elektron məhkəmə" informasiya sisteminin prokurorluq orqanlarına inteqrasiyası ədalət mühakiməsinin daha səmərəli və çevik həyata keçirilməsinə imkan yaradıb.

Dövlətimizin başçısının və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın sosial sahədə uğurlu siyasətinə dəstək olaraq dövlətin pulsuz dərmanla təmin etdiyi kimsəsiz şəxslərə həmin dərmanları əldə etmələri üçün müvafiq etibarnamənin elektron qaydada ödənişsiz verilməsi təşkil olunub.

Banklarda notariat xidmətlərinə ehtiyac duyulduqda bu hərəkətlərin dərhal yerində video-əlaqə vasitəsilə rəsmiləşdirilməsi imkanı yaradılıb. Eyni xidmətlər, həmçinin Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü olan böyük sosial əhəmiyyətə malik "DOST" mərkəzlərində də göstərilir. "Mobil notariat" da təkmilləşdirilərək məhkəmədə təmsilçilik üçün vəkilə verilən etibarnamənin notariata getmədən telefonla rəsmiləşdirilməsi mümkün olub.

Ədliyyə nazirinin müavini Toğrul Musayev çıxış edərək tədbirin qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanları arasında səmərəli əməkdaşlığın inkişafına, qarşılıqlı etimadın möhkəmləndirilməsinə xidmət etdiyini vurğulayıb.

Bildirib ki, dövlətimiz, xalqımız, qəhrəman ordumuz Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində şanlı qələbə qazanıb. Bu qələbə sayəsində Azərbaycan ərazi bütövlüyünü bərpa edib, torpaqlarımız erməni işğalından azad olunub və bölgədə yeni reallıqlar yaranıb. Dövlətimizin başçısı BMT Baş Assambleyasının 76-cı sessiyasının illik ümumi müzakirələrində tutarlı və konkret faktlara əsaslanan tarixi çıxışı ilə bu barədə həqiqətləri dünya ictimaiyyətinin nəzərinə bir daha çatdırıb.

Qeyd olunub ki, bu gün ölkəmiz özünün ən qüdrətli dövrünü yaşamaqla, tarixinin çox önəmli və məsuliyyətli mərhələsinə qədəm qoyub. Prezidentimizin siyasi iradəsi ilə işğaldan azad edilmiş ərazilərdə artıq çoxşaxəli abadlıq-quruculuq işləri aparılır. Birinci vitse-prezident Mehriban xanım Əliyevanın nəcib təşəbbüsləri ilə mühüm sosial layihələr həyata keçirilir. Hərbçilərimiz, şəhid ailələri, qazilərimiz dövlət qayğısı ilə daim əhatə olunub.

Nazir müavini Azərbaycanın sosial-iqtisadi inkişafında qanunun aliliyinin təmin olunmasının və məhkəmə-hüquq islahatlarının aparılmasının xüsusi önəmini vurğulayaraq, dövlətimizin başçısının "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" 2019-cu il 3 aprel tarixli Fərmanının bu sahədə mühüm "yol xəritəsi" olduğunu və müasir çağırışlara uyğun islahatların davam etdirildiyini diqqətə çatdırıb. Həmçinin məhkəmə-hüquq sistemində şəffaflığın artırılmasının Azərbaycanın 2030-cu ilədək sosial-iqtisadi inkişafa dair milli prioritetlərindən olduğu və bu istiqamətdə nazirlik tərəfindən zəruri işlərin görüldüyü vurğulanıb.

Dövlətimizin başçısının iştirakı ilə bu ay Sumqayıt Məhkəmə Kompleksinin, cari ilin mayında isə Suraxanı Rayon Məhkəməsinin yeni binasının istifadəyə verildiyini, həmçinin açılış zamanı Masallı rayonunda inşa olunmuş Məhkəmə Kompleksinin virtual təqdimatının keçirildiyini bildirən T.Musayev məhkəmə-hüquq sisteminə dair yeni-yeni inzibati binaların inşasının ölkədə hüquqa, ədalətə və demokratik inkişafa dövlətin xüsusi qayğılı yanaşmasının göstəricisi olduğunu vurğulayıb. Məlumat verilib ki, son 17 ildə dövlət büdcəsi hesabına və Dünya Bankının iştirakı ilə paytaxtda və bölgələrdə ümumilikdə 35 məhkəmə, bir o qədər də ədliyyə qurumu üçün yeni, müasir bina və komplekslər tikilərək istifadəyə verilib.

Milli Məclis sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli Sumqayıt Məhkəmə Kompleksinin müasir binası ilə tanışlıqdan xoş təəssüratlarını bölüşərək kompleksin məhkəmə hakimiyyətinin yüksək statusuna uyğun inşa olunduğunu vurğulayıb. Bildirib ki, hakimiyyətin üç qolu arasında səmərəli qarşılıqlı əlaqələr mövcuddur. Parlamentin Hüquq siyasəti və dövlət quruculuğu komitəsi məhkəmə-hüquq sistemi ilə çox sıx əməkdaşlıq həyata keçirir, yeni qanun layihələrinin müzakirəsi və qəbuluna öz töhfəsini verir.

Komitənin sədri parlamentin, həmçinin Məhkəmə-Hüquq Şurasında təmsil olunmaqla ölkəmizdə məhkəmə-hüquq islahatlarının həyata keçirilməsində də iştirak etdiyini bildirib. O, dövlətimizin başçısının 2019-cu ildə imzaladığı Fərmanla bu sahədə islahatların yeni mərhələyə qədəm qoyduğunu qeyd edərək, görülən tədbirlər barədə məlumatlılığın artırılmasının əhəmiyyətini vurğulayıb.

Tədbirdə Ədliyyə Nazirliyinin və Məhkəmə-Hüquq Şurası Aparatının rəhbər vəzifəli şəxslərinin məhkəmə-hüquq sistemində islahatlara, o cümlədən məhkəmə hakimiyyətinin müstəqilliyinin möhkəmləndirilməsi, məhkəmə qərarlarının icrası işinin səmərəliliyinin artırılması üzrə görülən tədbirlərə və tətbiq olunan innovasiyalara dair çıxışları dinlənilib, müzakirələr aparılıb.

Məlumat verilib ki, dövlətimizin başçısının tapşırıqlarına uyğun olaraq, məhkəmə sistemində islahatlar uğurla davam etdirilir. Azərbaycan Prezidentinin 2019-cu il 3 aprel tarixli Fərmanının icrası çərçivəsində kommersiya məhkəmələrinin təşkili, cəza siyasətinin humanistləşdirilməsi, cina-



yətlərin dekriminallaşdırılması, məhkəmə qərarlarının icrası işinin və məhkəmə ekspertizası fəaliyyətinin təkmilləşdirilməsi, vahid məhkəmə təcrübəsinin formalaşdırılması və digər məsələlərlə bağlı qabaqcıl beynəlxalq təcrübə öyrənilməklə, həmçinin ictimaiyyətin təklifləri və rəyləri nəzərə alınmaqla çoxsaylı normativ aktın layihəsi işlənib hazırlanıb, dövlətimizin başçısının qanunvericilik təşəbbüsü ilə Milli Məclis tərəfindən bir çox yeni qanunlar qəbul edilib.

Cari ildə də bu sahədə tədbirlərin davam etdirildiyi, kiçik iddialar (sadələşdirilmiş icraat) üzrə prosedur qaydalarının, məhkəmə iddialarının baxılma müddətlərinin, habelə məhkəmə proseslərinin təxirə salınması üzrə maksimum say və təxirəsalınmasının xüsusi hallarının tətbiqi, kommersiya mübahisələri üzrə ilkin iddialarla bağlı müəyyən sənədlərin kağız daşıyıcılarda təqdim olunmasına dair yeni qanun layihələrinin artıq qəbul olunduğu vurğulanıb. Həmçinin məhkəmələrin iş yükünün azaldılması, işlərə daha keyfiyyətlə baxılmasının təmin edilməsi məqsədilə Fərmanla 200 əlavə hakim ştatı



ayrılaraq məhkəmə korpusunun yüksək hazırlıqlı, innovasiyalara bələd və mənəvi keyfiyyətlərə malik hüquqşünaslarla komplektləşdirilməsi ilə bağlı ardıcıl tədbirlərin görüldüyü bildirilib. Qeyd olunub ki, hakimlərin seçimi davamlı xarakter alaraq 2021-ci ildə şəffaf seçimdən uğur qazanmış 44 nəfər dövlətimizin başçısının Sərəncamı ilə hakim vəzifələrinə təyin edilib, daha 125 namizəd isə müsabiqənin müxtəlif mərhələlərindədir.

Eyni zamanda, məhkəmə infrastrukturunun müasirləşdirilməsi çərçivəsində yeni bina



və komplekslər inşa olunaraq yüksək texnoloji - "hi-tech" məhkəmələr yaradılıb. "Elektron məhkəmə"nin və onun tərkib hissəsi olan "Elektron icra" sisteminin tətbiqinin genişləndirilməsi və funksionallığının artırılması ədalət mühakiməsinin səmərəsini artırıb, şəffaflığı və operativliyi təmin etməklə, vətəndaşlara "şəxsi kabinet" vasitəsilə tərəf olduqları işlər, onların icrası üzrə görülən tədbirlər barədə məlumatları elektron qaydada əldə etmək, məhkəmə prosesində videokonfrans formatında iştirak etmək imkanı yaradıb.

Qeyd olunub ki, həyata keçirilən islahatların uğurlu nəticələri məhkəmə statistikasından da aydın görünür. Belə ki, mülki və kommersiya işləri üzrə məhkəmə qərarlarının sabitliyi 95-96 faiz həddinə çatır. Kassasiya instansiyasına - Ali Məhkəməyə iddiaçıların və ya cavab-



dehlərin təxminən 5-6 faizi müraciət edir. Bu nəticələr məhkəmələrə artan inamın, ictimai etimadın əyani təzahürüdür.

Çıxışlarda ədalət mühakiməsinin ayrılmaz tərkib hissəsi olan və icrası məcburi xarakter daşıyan məhkəmə qərarlarının və azadlıqdan məhrumetməyə alternativ cəzaların icrası işinin səmərəliliyinin artırılması ilə bağlı görülən tədbirlər barədə məlumat verilib. Bildirilib ki, nazirliyin icra xidmətinin icraatında böyük iş yükünün olması ilə əlaqədar qərarların icrası sahəsində işlərin yaxşılaşdırılması ilə bağlı ardıcıl təsirli tədbirlər görülür, qanunvericilik daim təkmilləşdirilir, o cümlədən icra sahəsində fəaliyyəti tənzimləyən normativ aktların sistemləşdirilməsi məqsədilə ilk dəfə olaraq İcra Məcəlləsinin layihəsi işlənib hazırlanıb. Bu sahədə görülən təsirli tədbirlər nəticəsində icrası təmin olunmuş icra işlərinin sayında artım müşahidə edilir. Cari ilin birinci yarısında icrası təmin olunan və davam etdirilən icra sənədlərinin sayı 13 faizdən çox artaraq 350 minə çatıb.





Bununla yanaşı, azadlıqdan məhrumetməyə alternativ cəzaların icrasının səmərəsi artırılıb. Həmin cəzaların icrasına effektiv nəzarətin həyata keçirilməsi məqsədilə elektron nəzarət vasitələrinin tətbiqi genişləndirilib. Hazırda 4200-ə yaxın məhkum elektron qolbaq daşıyır və onların üzərində dönmədən probasiya nəzarəti həyata keçirilir.

Maraqlı və işgüzar müzakirələrdə çıxış edən digər deputatlar, vətəndaş cəmiyyəti institutlarının rəhbərləri məhkəmə-hüquq sistemində həyata keçirilən tədbirləri, məhkəmə infrastrukturunun müasirləşdirilməsini, ədliyyə və məhkəmə sahəsində böyük ictimai əhəmiyyət kəsb edən rəqəmsal innovasiyaların geniş tətbiqini təqdir edib, bu sahədə yeniliklərin geniş ictimaiyyətə təqdim olunmasının əhəmiyyətini vurğulayıblar.





Çıxışlarda, həmçinin hakimlərin müstəqilliyinin və nüfuzunun möhkəmləndirilməsi, məhkəmələrə ictimai etimadın artırılması, məhkəmə qərarlarının ədalətliliyinin və icrasının təmin edilməsi, tətbiq olunan elektron sistemlərdən vətəndaşların daha geniş bəhrələnməsi və digər məsələlərlə bağlı fikirlərini bölüşüb, konkret təkliflər səsləndiriblər.



İctimai təqdimat iştirakçılar tərəfindən maraqla qarşılanıb, qaldırılan suallar ətraflı cavablandırılıb.



Tədbirə yekun vuran nazir müavini T.Musayev Milli Məclisin deputatlarına və vətəndaş cəmiyyəti institutlarına ədliyyə və məhkəmə sistemində görülən işləri təqdir edərək maraqlı və məzmunlu çıxış etdiklərinə görə minnətdarlığını bildirib, irəli sürülən təklif və tövsiyələrin bu sahədə işin təkmilləşdirilməsi baxımından əhəmiyyətini vurğulayıb.

# Sumqayıt Məhkəmə Kompleksinə media-tur təşkil olunub





**Xəbər verildiyi kimi, sentyabrın 3-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Sumqayıt Məhkəmə Kompleksinin açılışını edib, binada yaradılan şəraitlə tanış olub.**

Konseptual baxımdan yeni olan, öz funksionallığı ilə fərqlənən və altı məhkəməni - Sumqayıt apellyasiya, regional inzibati, kommersiya və ağır cinayətlər, Sumqayıt şəhər, eləcə də müvəqqəti olaraq Qubadlı rayon məhkəmələrini əhatə edən Sumqayıt Məhkəmə Kompleksində innovasiyalar və digər avadanlıqlarla təchiz olunmaqla yaradılan müasir şərait təxminən 1 milyon 460 min əhaliyə rahat və əlçatan, keyfiyyətli məhkəmə xidmətlərinin göstərilməsinə yönəlib.

Artıq istifadəyə verilmiş yeni məhkəmə kompleksi sentyabrın 7-də ictimaiyyətə təqdim olunub. Bu münasibətlə Ədliyyə Nazirliyi tərəfindən aidiyyəti rəhbər işçilərin və hakimlərin, Milli Məclisin deputatlarının, Sumqayıt Şəhər İcra Hakimiyyətinin, Vəkillər Kollegiyasının, Mediasiya Şurasının, Azərbaycan Sahibkarlar Konfederasiyasının, Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin təmsilçilərinin, hüquqşünas alimlərin, vətəndaş cəmiyyəti və çoxsaylı KİV nümayəndələrinin iştirakı ilə geniş təqdimat keçirilib, media-tur təşkil olunub.

Tədbir iştirakçıları əvvəlcə bina ilə tanış olublar.

Bildirilib ki, dövlət başçısının tapşırıqlarına uyğun olaraq məhkəmə sistemində islahatlar uğurla davam etdirilir, bu sahədə mühüm "yol xəritəsi" olan ölkə Prezidentinin 2019-cu il 3 aprel tarixli Fərmanının icrası ilə bağlı ardıcıl tədbirlər görülür. Məhkəmə infrastrukturunun müasirləşdirilməsi çərçivəsində rəqəmsal innovasiyalar tətbiq olunmaqla yüksək texnoloji - "hi-tech" məhkəmə bina və kompleksləri inşa olunaraq istifadəyə verilir.

Son 17 ildə dövlət büdcəsi hesabına və Dünya Bankının iştirakı ilə paytaxtda və bölgələrdə 35 məhkəmə, elə bir o qədər də ədliyyə qurumu üçün yeni, müasir bina və komplekslərin tikilərək istifadəyə verilməsi dövlətimizin başçısının diqqəti və qayğısı sayəsində məhkəmə-hüquq sistemində görülən ardıcıl tədbirlərin tərkib hissəsidir.

Ötən dövrdə Prezident İlham Əliyevin tapşırığı ilə Azərbaycan Respublikasının Ali Məhkəməsi üçün müasir, əsl Ədalət Sarayı olan möhtəşəm bina inşa olunaraq istifadəyə verilib. Dövlət başçısı həmçinin, Sabunçu, Şəki Məhkəmə komplekslərinin, eləcə də Yasamal, Nərimanov, Binəqədi və Oğuz Rayon məhkəmələri üçün yeni binaların açılışlarında iştirak edib. Bu ilin mayında isə ölkə başçısının iştirakı ilə Suraxanı Rayon Məhkəməsinin yeni inşa olunmuş müasir binası istifadəyə verilib. Açılış zamanı dövlət başçısına Masallı rayonunda inşa olunmuş Məhkəmə Kompleksinin virtual təqdimatı keçirilib və sonra geniş media-tur təşkil olunmaqla ictimaiyyətə təqdim edilib. Sumqayıt Məhkəmə Kompleksi isə respublikamızda inşa olunan sayca dördüncü məhkəmə kompleksidir.





İctimaiyyət və media nümayəndələri kompleksdə Müzəffər Ali Baş Komandanın yenilməz sərkərdəliyi ilə Vətən müharibəsində qazanılmış Zəfər salnaməsinə, işğaldan azad edilmiş doğma torpaqlarımızda dövlətimizin başçısının müasir çağırışlara uyğun həyata keçirdiyi, respublikamızın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın fəal iştirakı və nəcib təşəbbüsləri ilə aparılan nəhəng bərpa-quruculuq işlərinə həsr olunan stendlərlə tanış olublar.

Məlumat verilib ki, burada ümummilli lider Heydər Əliyevin və Prezident İlham Əliyevin ölkəmizdə ədliyyə və məhkəmə sisteminin inkişafına göstərdikləri diqqət və qayğını əks etdirən fotoguşələr quraşdırılıb.

Sonra kompleksdə məhkəmə iclas zalları, ictimai və inzibati zonalar, hakimlər üçün və digər otaqlarla, "Elektron məhkəmə" informasiya sisteminin tətbiqi və innovasiyalarla tanışlıq olub.

Bildirilib ki, binada quraşdırılmış müasir elektron məlumat daşıyıcıları vətəndaşlara məhkəmə prosesləri və onların keçiriləcəyi tarix, vaxt, məhkəmə zalı, hakim və digər məsələlərlə bağlı informasiyanı maneəsiz əldə etməyə imkan yaradır. Həmçinin əhalinin həssas təbəqəsi olan əlil vətəndaşların rahat hərəkət etmələri üçün binada bütün zəruri şərait vardır.

Digər müasir məhkəmə binalarında olduğu kimi, Sumqayıt Məhkəmə Kompleksi də inzibati və ictimai zonalara bölünür. İnzibati zona hakimlər və məhkəmə işçiləri, ictimai zona isə vətəndaşlar üçün nəzərdə tutulub. İcra məmurları, dövlət ittihamçıları və vəkillər də ictimai zonadan istifadə edəcəklər. Bununla da hakimlər və tərəflər arasında qeyri-prosessual münasibətlərin qarşısı alınır və onlar yalnız məhkəmə iclas zallarında görüşürlər.

Kompleksdə 24 məhkəmə iclas zalı - cinayət işlərinin baxıldığı 7 və mülki işlərin baxıldığı 17 zal fəaliyyət göstərir. Məhkəmə zallarında proseslərə "Elektron məhkəmə" informasiya sistemi və digər müasir İKT-lərin tətbiqi ilə daha keyfiyyətli baxılması üçün "Femida" sistemi quraşdırılıb ki, bununla proseslərin daha dəqiq və sürətlə protokollaşdırılması, audio-video yazılışı aparılır, məhkəmə sənədlərinin tərtibi asanlaşır, işlərə məsafədən videokonfrans formatında baxılması mümkün olur.

Cinayət işləri üzrə məhkəmə zallarında həmçinin, təqsirləndirilən şəxslər üçün xüsusi yer ayrılıb və burada monitor, mikrofon və vəkillə əlaqə saxlamaq üçün birbaşa telefon quraşdırılıb.

Eyni zamanda binada böyük akt zalı, müxtəlif tədbirlərin, o cümlədən tədris kurslarının keçirilməsi üçün zəruri avadanlıqla təchiz olunmuş konfrans və iclas zalları mövcuddur. Kitabxana məhkəmə-hüquq sahəsinə aid ədəbiyyatla, Azərbaycan tarixinə dair, Vətən müharibəsində Zəfər salnaməsinə həsr olunmuş müxtəlif dillərdə kitablar və digər yeni nəşrlərlə zəngindir.

İştirakçılar hakimlər və məhkəmə işçiləri üçün otaqlara da baxıblar. Məlumat verilib ki, 50-dək hakimin, ümumilikdə isə orada çalışacaq 240 işçinin fəaliyyəti, videokonfransların, təlimlərin və digər tədbirlərin təşkili üçün hər cür şərait vardır. Kompleksdə vətəndaşların qəbulu, dəftərxana, işlərlə tanışlıq, dövlət ittihamçıları və vəkillər üçün otaqlar, tibb, ana və uşaq otaqları da yerləşir.

Dörd korpusdan əsas və yardımçı tikililərdən ibarət olan kompleksin zirzəmi qatında isə qaraj, o cümlədən konvoy üçün təhlükəsiz dayanacaq, texniki təminat üçün qurğular, yanğın təhlükəsizliyi və server avadan-

lığı, arxiv, maddi sübutların saxlanıldığı yer, həmçinin arxa həyətdə müasir qazanxana, transformator, generator, içməli su və yanğın söndürmə yeraltı hovuzları və digər sahələr mövcuddur.

Bina ilə tanışlıqdan sonra kompleksin akt zalında keçirilən tədbirdə ölkə Prezidenti cənab İlham Əliyevin müasir çağırışlara uyğun həyata keçirdiyi islahatların məhkəmə-hüquq sistemini də əhatə etdiyi, bu sahədə görülən ardıcıl və məqsədyönlü tədbirlərin ədalət mühakiməsinin səmərəliliyinin yüksəldilməsinə, şəffaflığın artırılmasına, vətəndaşlara keyfiyyətli məhkəmə xidmətlərinin göstərilməsinə və onların əlçatanlığının genişləndirilməsinə yönəldiyi bildirilib.

Dövlət başçısının 03.04.2019-cu il tarixli Fərmanı ilə bu sahədə islahatların dərinləşdiyi, hakimlərin sosial müdafiəsinin və məhkəmələrin təminatının yaxşılaşdığı vurğulanıb, yeni yaradılmış ixtisaslaşmış - kommersiya məhkəmələrinin sahibkarların etibarlı məhkəmə müdafiəsinin təmin olunmasında mühüm fəaliyyəti, mediasiya institutunun təşviqi qeyd olunub.

Həmçinin Fərmanla 200 əlavə hakim ştatının ayrılmasının məhkəmələrin iş yükünün azaldılmasına, işlərə daha keyfiyyətlə baxılmasına xidmət etdiyi, bununla bağlı hakimlərin seçiminin davamlı xarakter alaraq məhkəmə korpusunun yüksək hazırlıqlı, innovasiyalara bələd və mənəvi keyfiyyətlərə malik hüquqşünaslarla komplektləşdirildiyi diqqətə çatdırılıb. Bildirilib ki, cari ildə şəffaf seçimdən uğur qazanmış 44 nəfər dövlət başçısının Sərəncamı ilə hakim vəzifələrinə təyin edilib, daha 125 namizəd isə müsabiqənin müxtəlif mərhələlərindədir. 150 nəfər hakimlik arzusunda olan şəxslər isə sənədlərini təqdim ediblər.

Sonra ədliyyə və məhkəmə sahəsində tətbiq olunan növbəti rəqəmsal innovasiyalar barədə video-çarx nümayiş etdirilib.

Çıxış edənlər müasir məhkəmə binalarının istifadəyə verilməsinin məhkəmə sistemində aparılan islahatlara əlavə töhfə olmaqla məhkəmələrin fəaliyyətinin yüksək səviyyədə təmin olunmasına, məhkəmə hakimiyyətinə ictimai etimadın yüksəldilməsinə, vətəndaşların məhkəmələrə əlçatanlığının genişləndirilməsinə xidmət etdiyini bildirib, regionların hərtərəfli tərəqqisinə, xüsusilə ədalət mühakiməsinin səmərəliliyinə və məhkəmə sisteminin inkişafına göstərdiyi xüsusi qayğıya görə dövlətimizin başçısı İlham Əliyevə dərin minnətdarlıqlarını ifadə ediblər.

# Mobil notariat xidmətləri xarici ölkələrdə böyük maraq doğurur

**Notariat sahəsində innovasiyaların tətbiqi, o cümlədən elektron və mobil notariat xidmətləri üzrə Azərbaycanın təcrübəsi xarici dövlətlərdə böyük maraq doğurur.**

Müasir rəqəmsal xidmətlərin təşviqi çərçivəsində Azərbaycan Notariat Palatası və Ədliyyə Nazirliyinin nümayəndə heyəti Türkiyə və Özbəkistan respublikalarında işgüzar səfərdə olub.

Türkiyə Notariuslar Birliyi tərəfindən təşkil edilən tədbirdə elektron reyestrlərin aparılması, nəqliyyat vasitələrinin özgəninkiləşdirilməsi proseduru və elektron sənəd dövriyyəsinin həyata keçirilməsi üzrə təqdimatlar keçirilib.

Bundan əlavə, notariat sahəsində digər maraq doğuran məsələlər, xüsusilə notariat sənədlərinin yoxlanılması imkanları və ölkədaxili şəxsiyyət vəsiqələri (kimliklər) ilə notariat hərəkətlərinin rəsmiləşdirilməsinin mümkünlüyü istiqamətində müzakirələr aparılıb.

Tədbirdə nümayəndə heyətimiz tərəfindən "Elektron notariat" informasiya sisteminin imkanları, onun digər informasiya resursları ilə qarşılıqlı məlumat mübadiləsi barədə məruzələr edilib, "Mobil notariat" tətbiqi vasitəsilə məsafədən notariat hərəkətlərinin rəsmiləşdirilməsi əyani nümayiş olunub. Təqdimat zamanı





*Türkiyə Notariuslar Birliyində görüş*



*Özbəkistan ədliyyə nazirinin müavini Əkbər Taşkulov ilə görüş*



*Azərbaycan-Özbəkistan Notariat palataları arasında Memorandumun imzalanması*

verilən məlumatlar tədbir iştirakçıları tərəfindən maraqla qarşılanıb və onların çoxsaylı sualları cavablandırılıb.

Səfər proqramı çərçivəsində nümayəndə heyəti Ankara şəhərindəki notariat ofislərində notariat hərəkətlərinin aparılması, o cümlədən nəqliyyat vasitələrinin özgəninkiləşdirilməsi müqaviləsinin rəsmiləşdirilməsi və nəticədə vətəndaşlara yeni texniki sənədlərin verilməsi proseduru, eləcə də notariat hərəkətlərinin reyestrinin elektron qaydada aparılması təcrübəsi ilə yaxından tanış olub.

Özbəkistana səfər zamanı nümayəndə heyətimiz ədliyyə nazirinin müavini Əkbər Taşkulov tərəfindən qəbul edilib.

Nazir müavini görüşdə ölkəmizin Ədliyyə Nazirliyi və Notariat Palatası tərəfindən notariatın inkişafı istiqamətində görülən işləri və bu sahədə rəqəmsallaşmanın səviyyəsini yüksək qiymətləndirib, öz ölkələrində müvafiq islahatların aparılmasında Azərbaycan təcrübəsinin böyük rol oynadığını xüsusi vurğulayıb.

Söhbət zamanı "Mobil notariat" tətbiqinin imkanları və onun vasitəsilə rəsmiləşdirilmiş notariat hərəkətlərinin statistik göstəriciləri, səyyar elektron notariat çantası və icra qeydlərinin elektron qaydada aparılması barədə verilən məlumatlar həmkarlarda xüsusi maraq doğurub, Ə.Taşkulov bu təcrübələrin öyrənilərək Özbəkistanda tətbiqinə dair müvafiq göstərişlər verib.

Özbəkistan Notariat Palatasının hazırladığı "Özbəkistan notariuslarının fəaliyyətində informasiya texnologiyalarından istifadə təcrübəsi və onun inkişafı" mövzusunda təqdimat zamanı Özbəkistan notariuslarının istifadə etdikləri informasiya sistemi, onun digər qurumların sistemləri ilə inteqrasiya imkanları, nəqliyyat vasitələrinin özgəninkiləşdirilməsi proseduru barədə geniş məlumat verilib.

Səfər zamanı Azərbaycan və Özbəkistan Notariat palataları arasında Əməkdaşlıq haqqında Memorandum imzalanıb.

Tərəflər əməkdaşlığın genişləndirilməsinin və təcrübə mübadiləsinin aparılmasının hər iki ölkədə notariat fəaliyyətinin daha səmərəli inkişafına mühüm töhfə verəcəyinə əminliyi ifadə ediblər.

# "Dövlət rüsumu haqqında" Qanuna edilmiş dəyişikliklərlə bağlı ictimai müzakirə keçirilib

**Sentyabrın 15-də Ədliyyə Nazirliyi tərəfindən "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununa edilmiş dəyişikliklərlə bağlı onlayn ictimai müzakirə keçirilib.**




Tədbirdə Ali Məhkəmənin hakimi İsmayıl Xəlilov, Bakı Şəhər Nəsimi Rayon Məhkəməsinin hakimi Səməd Cəfərov, nazirliyin Qanunvericilik baş idarəsi İqtisadi normativ aktlar idarəsinin böyük məsləhətçisi Aytən Məmmədova, Vəkillər Kollegiyası Rəyasət Heyətinin üzvü Sima Yaqubova qanunvericilikdə edilən son dəyişikliklər barədə ətraflı məlumat veriblər.

Bildirilib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə məhkəmə-hüquq sistemində islahatlar uğurla davam etdirilir. Bu sahədə mühüm "yol xəritəsi" olan dövlətimizin başçısının 2019-cu il 3 aprel tarixli Fərmanının icrası ilə görülən ardıcıl tədbirlər ədalət mühakiməsinin səmərəliliyinin yüksəldilməsinə, şəffaflığın artırılmasına, vətəndaşlara keyfiyyətli məhkəmə xidmətlərinin göstərilməsinə və onların əlçatanlığının genişləndirilməsinə yönəlib.

Fərman dövlətimizin başçısının məhkəmə hakimiyyətinə verdiyi müstəsna əhəmiyyətinin təzahürü olmaqla bu sahədə həyata keçirilən məhkəmə-hüquq islahatlarının mühüm tərkib hissəsi və məntiqi davamıdır.

Görülən tədbirlər çərçivəsində məhkəmələrdə baxılan işlər üzrə ödənilən dövlət rüsumunun dərəcələrinin verilən iddiaların qiymətinə müvafiq olaraq diferensiasiya edilməsi məqsədilə "Dövlət rüsumu haqqında" Qanuna dəyişikliklər olunub. Məhkəmələrdə baxılan işlər üzrə ödənilən dövlət rüsumunun müəyyən hissəsi məhkəmə aparatı işçilərinin sosial müdafiəsinin gücləndirilməsinə və məhkəmələrin maddi texniki bazasının möhkəmləndirilməsinə yönəldilib.

Həmin dəyişikliklərin dürüst icrası məqsədilə Ədliyyə Nazirliyi tərəfindən zəruri tədbirlər görülür. Çıxış edənlər qanunvericilikdə edilən son dəyişikliklərin zərurəti barədə məlumat veriblər.

Qeyd edilib ki, dövlət rüsumu dövlət orqanları və müvafiq icra hakimiyyəti orqanının yaratdığı qurumlar tərəfindən hakimiyyət səlahiyyətlərinin icrası zamanı göstərilən və hüquqi nəticələrin yaranmasına səbəb olan xidmətlərə və hüquqi hərəkətlərə görə ödənilən haqdır.

Məhkəmələr ədalət mühakiməsi ilə bağlı xidmət həyata keçirdiyi üçün ədalət mühakiməsinin xidməti ona uyğun olmalıdır. "Dövlət rusumu haqqında" Qanuna edilən dəyişikliklərə əsasən məhkəməyə iddia ərizəsinin, digər ərizənin və ya şikayətin verilməsinə, məhkəmə aktının surətinin təkrar verilməsinə, özəl məhkəmə eksperti qismində fəaliyyət göstərmək üçün şəhadətnamənin verilməsinə görə dövlət rüsumunun dərəcələri müəyyən edilib. Bildirilib ki, bu dəyişikliklər 2021-ci il oktyabrın 1-dən qüvvəyə minir və Qanun onun qüvvəyə minməsindən sonra verilən iddia ərizələri və digər ərizələrə, habelə şikayətlərə görə ödənilən dövlət rüsumlarına şamil edilir.

Məlumat verilib ki, Azərbaycan dövləti mübahisələrin alternativ həlli qaydasını qarşıya məqsəd qoyub. Bununla bağlı

qanun qəbul olunub. Bu yaxınlarda "Mediasiya haqqında" Qanuna uyğun olaraq mediasiya prosesi başlayıb. "Dövlət rüsumu haqqında" Qanuna dəyişikliklərin edilməsi mediasiyanın inkişafına birbaşa təkan verəcək. Vətəndaşlar mübahisəni məhkəmə qaydasında yox, barışıq yolu ilə həll etməyə sövq ediləcək. Mediasiyaya müraciət edən tərəflər peşəkar mediatorun köməyi ilə mübahisəni barışıq sazişi ilə yekunlaşdıra biləcəklər.

Vurğulanıb ki, qanuna edilən dəyişikliklər məhkəmələrdə əsassız iddiaların, iş yükünün azalmasına xidmət edəcək.

Məhkəmələrdə baxılan işlər üzrə ödənilən dövlət rüsumunun dərəcələrinin verilən iddiaların qiymətinə müvafiq olaraq diferensiallaşdırılması, tələb edilən iddia məbləğlərinə mütənasib olaraq dövlət rüsumunun hesablanması məhkəmə sisteminin təkmilləşdirilməsinə və vətəndaşlara keyfiyyətli hüquqi xidmətlərin göstərilməsinə gətirib çıxaracaqdır.

Nazirliyin rəsmi feysbuk səhifəsində canlı yayımlanan onlayn tədbirdə, həmçinin sosial şəbəkə istifadəçilərini maraqlandıran suallar cavablandırılıb.

# Ali Məhkəmənin və Ədliyyə Nazirliyinin birgə məlumatı







**Ölkəmizdə həyata keçirilən məhkəmə-hüquq islahatları çərçivəsində ədalət mühakiməsinin keyfiyyətinin və səmərəliliyinin artırılması üzrə ardıcıl tədbirlər görülür, o cümlədən beynəlxalq təcrübə nəzərə alınaraq dövlət rüsumu ilə bağlı qanunvericiliyə dəyişikliklər edilib.**

Həmin dəyişikliklərə əsasən dövlət rüsumu tutulmalı olan hərəkətlər sistemləşdirilib və dövlət rüsumunun dərəcələri diferensial qaydada müəyyən olunub.

2021-ci ilin oktyabrın 1-dən qüvvəyə minən qanunvericilikdəki yeniliklərlə bağlı məhkəmələrdə bu işə məsul şəxslər ayrılıb, könüllülər cəlb olunub və həmin şəxslərlə təlim tədbirləri keçirilib.

Həmçinin əhalinin məlumatlandırılması üçün maarifləndirmə və təbliğat işi aparılıb, məhkəmələrdə dövlət rüsumlarının hesablanmasına dair xüsusi informasiya stendləri quraşdırılıb, məsələ ilə bağlı məhkəmələrin vahid internet portalında və Ədliyyə Nazirliyinin saytında ayrıca bölmələr yaradılıb.

Vətəndaş məmnunluğunun təmin edilməsi, habelə təcrübədə rahat və asan istifadə olunması məqsədilə rüsumların dəqiq və avtomatik hesablanmasına imkan verən onlayn kalkulyator, eləcə də xüsusi metodiki vəsait hazırlanaraq məhkəmələrin vahid portalında (courts.gov.az), Ali Məhkəmənin (supremecourt.gov.az) və Ədliyyə Nazirliyinin (justice.gov.az) internet saytlarında yerləşdirilib.

# Ədliyyə orqanlarına qulluğa qəbul olunmaq istəyənlərin nəzərinə

**Ədliyyə Nazirliyinin Müsabiqə Komissiyası tərəfindən kadr korpusunun hazırlıqlı gənc hüquqşünaslarla komplektləşdirilməsi məqsədilə şəffaf şəraitdə mütəmadi müsabiqələr keçirilir.**

Bununla əlaqədar ədliyyə orqanlarına qulluğa qəbul olunmaq istəyənlərə əlverişli şərait yaradılır, ərizələrin qəbulu məqsədilə nazirliyin internet səhifəsində (www.exidmet.justice.gov.az) və ya "Elektron hökumət" portalında (www.e-gov.az) "Ədliyyə orqanlarına qulluğa qəbulla bağlı müsabiqədə iştirak üçün namizədin qeydə alınması" adlı elektron xidmət fəaliyyət göstərir.

Bu tədbirlər çərçivəsində bölgələrdə yerləşən nazirliyin icra və probasiya, həmçinin qeydiyyat qurumlarında (Bakı və Sumqayıt şəhərləri, Abşeron rayonu istisna olmaqla) işləmək arzusunda olan "Ədliyyə orqanlarında qulluq keçmə haqqında" Qanunun 4-cü maddəsində nəzərdə tutulmuş tələblərə cavab verən ali hüquq təhsilli Azərbaycan Respublikasının vətəndaşları elan edilmiş müsabiqədə iştiraka dəvət olunur. Bununla bağlı, qeyd olunan elektron xidmət vasitəsilə ərizə forması doldurulmalı və təsdiq edilməlidir. Ərizələr poçt vasitəsilə də göndərilə bilər.

Qeyd edirik ki, namizədlərin seçimində çevikliyin təmin edilməsi məqsədilə müsabiqənin birinci mərhələsi olan test imtahanı Dövlət İmtahan Mərkəzi ilə birlikdə müvafiq sayda namizəd qrupu formalaşdıqca informasiya-kommunikasiya texnologiyaları tətbiq olunmaqla keçiriləcəkdir. Test imtahanından uğur qazanmış namizədlərin digər zəruri sənədləri bu mərhələdən sonra



toplanılaraq yoxlanılacaq və qanunvericiliklə müəyyən edilmiş tələblərə cavab verən şəxslər ikinci mərhələyə - söhbətə buraxılacaqdır.

Namizədlərin imtahanlara hazırlaşmalarına dair metodiki xülasə və müsabiqənin keçirilməsi qaydaları ilə nazirliyin internet səhifəsində "Qulluğa qəbul" bölməsində və qeydə alınan namizədlərin elektron kabinetlərində tanış olmaq mümkündür. Bu sənədlər habelə, yerli ədliyyə qurumlarına müraciət edənlərə təqdim olunur.

Bildirilir ki, mövcud təcrübəyə əsasən hazırkı müsabiqədə iştirak edən hüquqşünaslar üçün də test imtahanına və söhbət mərhələsinə mükəmməl hazırlaşmalarına və yüksək nəticələr əldə etmələrinə köməklik məqsədilə nazirliyin Ədliyyə Akademiyasında vaxtaşırı hazırlıq kursları təşkil edilir (Bakı şəhəri, Vidadi küçəsi 158, telefon: 493-71-31).

Test imtahanlarının vaxtı və yeri barədə namizədlərə əlavə məlumat veriləcəkdir.

Nazirliyin internet səhifəsindən, eləcə də (012) 538-01-62, 538-08-85 nömrəli telefonlar vasitəsilə bütün suallarla bağlı operativ informasiya almaq olar.

# Vətənə xidmət şərəfdir



*Mərdan Adışlı 2020-ci ildən Ədliyyə Nazirliyinin Məhkəmə ekspertizası mərkəzi Fiziki-kimyəvi ekspertizalar şöbəsinin eksperti vəzifəsində çalışır, III dərəcəli ədliyyə qulluqçusu xüsusi rütbəsindədir.*

*M.Adışlı Vətən müharibəsində torpaqlarımızın azad olunması uğrunda gedən döyüşlərdə fəal iştirak edərək şəxsi igidlik və şücaət nümayiş etdirmişdir. O, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq sərəncamları ilə "Döyüşdə fərqlənməyə görə", "Xocavəndin azad olunmasına görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə, həmçinin Ədliyyə Nazirliyi üzrə əmrlə Fəxri fərmanla və digər mükafatlarla təltif olunmuşdur.*

*Vətən müharibəsi iştirakçısı, ədliyyə işçisi Mərdan Adışlı döyüş yolu barədə "Respublika" qəzetinə müsahibə vermişdir. Müsahibənin mətnini oxucularımızın diqqətinə təqdim edirik.*

**-Tarixi şanlı qələbəmizin qazanılmasında sizin də payınız var, rəşadətli döyüş yolu keçmisiniz. Yaddaşlardan silinməyən o günləri necə xatırlayırsınız, cəbhəyə hansı hisslərlə yollandınız?**

-Hər bir azərbaycanlı kimi 30 il düşmən tapdağında olan doğma torpaqlarımızın azad olunması üçün başlanan haqq savaşında iştirak etmək arzusunda idim və ehtiyatda olan zabit kimi döyüşə çağırıldığım gün sevincimin həddi-hüdudu yox idi. Sentyabr ayının 27-də artıq müharibə başlanmışdı və təxminən ilk 10 gün döyüşlərdə olmamağım məni çox məyus edirdi. Həmin müddətdə evdə, küçədə, işdə, ictimai yerlərdə sanki insanların, ana bacılarımızın üzünə baxa bilmirdim ki, mən burada rahat gəzirəm, amma cəbhədə düşmənlə üz-üzə əsgər və zabitlərimiz vuruşur. Çağırıldığım gün qürur hissi keçirdim ki, nəhayət mən də igid Azərbaycan əsgərləri ilə çiyin-çiyinə azğın düşmənə qarşı vuruşacağam.

**-Birinci Qarabağ savaşı ilə müqayisədə Vətən müharibəsində əsgərlərin döyüş və vətənpərvərlik ruhu haqqında nə deyə bilərsiniz?**

-Ali Baş Komandanımız cənab İlham Əliyevin güclü siyasi iradəsi və yenilməz sərkərdəliyi ilə aparılan bu mübarizə, sözsüz ki, ölkəmizin hərbi qüdrətinə və ordumuzun gücünə əsaslanırdı. Bircə an belə düşünməmişəm ki, bizim ordu məğlub ola bilər. Cənab Ali Baş Komandan çıxışlarında vurğuladığı kimi, qırx dörd günün hər bir anı qəhrəmanlıq dastanıdır, əzizdir, doğmadır. Çünki yalnız biz irəli gedirdik, bir gün də geri addım atmadan.




Döyüş müddətində bir zabit olaraq baş verə biləcək hadisələrin əvvəlcədən ehtimalını nəzərə alanda atəş mövqelərimizin ancaq irəliyə doğru gedəcəyini düşünmüşəm və tabeliyimdə olan əsgərlərimə də bu düşüncələrimi aşılamağa çalışmışam. Söz yox ki, Azərbaycan əsgərinə bu duyğuları aşılamağa ehtiyac yox idi. Çünki hər birimiz yüksək vətənpərvərlik və birlik hissi ilə ancaq düşməni məhv etmək, onların hiylələrinin



qarşısını almaq haqqında düşünürdük. Onu da yaxşı bilirdik ki, 30 ildə düşmən güclü müdafiə səngərləri və istehkamları qurub. Sevindirici haldır ki, ordumuzun hər bir taktiki hücumunda onların qurduqları səngər və istehkamlar ələ keçirilərək bizim üçün müdafiə xəttinə çevrilirdi. Hətta döyüş sursatları belə hərbi qənimət kimi ələ keçirilirdi. Bütün bunlar orduda döyüş ruhunu artırırdı.

**-Döyüşlərə gedərkən ailənizdən, azyaşlı övladlarınızdan ayrılıb od-alova atılmaq sizə çətin deyildi ki?**

-Müharibəyə getmək barədə xəbəri eşidəndə ailəm, təbii ki, çox narahat oldu. İlk olaraq atama zəng edib dedim. Atam bu xəbəri eşidəndə onun keçirtdiyi həyəcanı, qorxunu və narahatlığı "hara?" sualını verəndə hiss etdim. Ailəm və uşaqlarımla sağollaşıb yola düşəndə övladlarımın üzünə uzun müddət baxdım ki, onların baxışları cəbhədə daim xəyalımda qalsın. Bu ayrılıq əlbəttə ki, çətin və ağır oldu, lakin mən düşünürdüm ki, qarşıda duran qəddar düşmən heç bir uşağa, qadına, qocaya rəhm etməyib və etməz də. Ailəmdən ayrılmağın ağırlığını və çətinliyini yalnız düşmənə olan nifrətim, qələbəyə sonsuz inamım unutdururdu.

**-Müharibədən sonra döyüş xatirələrini, hər an ölümlə üz-üzə yaşanan anları unutmaq olmur. Siz necə, həmin anları xatırladıqca hansı hissləri keçirirsiniz?**

-Döyüşlərdə rastlaşdığım çətin məqamlar, şəhidlərimizin şəhadətə yetdiyi, döyüş yoldaşlarımın yaralandığı anları unutmaq heç cür mümkün deyil. Çünki o anlar şəhid və qazilərimizin qanı ilə yazılıb yaddaşımıza. Təbii ki, belə anlar müəyyən mənada insanda sarsıntı yaradır, lakin psixoloji cəhətdən güclü olmaq Azərbaycan əsgər və zabitinə xas olan bir xüsusiyyətdir.

**-Rəşadətli Ordumuzun əsgər və zabitləri göstərdikləri şücaətə, qarşıya qoyulan vəzifələri igidliklə yerinə yetirdiklərinə görə müxtəlif orden və medallara layiq görülüblər. Döyüşlərdə iştirakınıza görə təltif olunmusunuzmu?**

-Azərbaycan ordusu, əsgər və zabiti hər zaman yüksək dövlət qayğısı ilə əhatə olunub. Vətən uğrunda döyüşən hərbçilərimizin şücaəti, qəhrəmanlığı cənab Ali Baş Komandan tərəfindən yüksək qiymətləndirilib, onlar təltif ediliblər, o cümlədən mən də möhtərəm Prezidentimizin müvafiq Sərəncamı ilə "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" və "Döyüşdə fərqlənməyə görə" medalları ilə, habelə döyüşlərdə iştirak etdiyimə görə, Ədliyyə Nazirliyinin rəhbərliyi, hərbi hissə komandanlığı tərəfindən "Fəxri fərman" və digər mükafatlarla təltif olunmuşam.

Müharibə iştirakçılarının yüksək dövlət təltiflərinə layiq görülməsi cənab Ali Baş Komandana dərin minnətdarlıqla qarşılanaraq hər birimizi dövlət başçısının "dəmir yumruğu" ətrafında sıx birləşərək bundan sonra da böyük qələbələrə ruhlandırır.

**-Qalib ordunun zabiti kimi geri dönərkən yaşadığınız anları, təəssüratlarınızı bizimlə bölüşərdiniz.**

-Qalib Azərbaycan Ordusunun bir zabiti kimi böyük fəxr hissi keçirirəm ki, Zəfər yürüşündə düşmənə layiqli cavabı verənlərin sırasında mən də varam. Döyüşlər bitdikdən sonra çalışdığım Ədliyyə Nazirliyinin kollektivi tərəfindən çox xoş qarşılandım. Xüsusilə müharibə dövründə nazirliyin, o cümlədən Məhkəmə ekspertiza mərkəzinin rəhbərliyi tərəfindən mütəmadi olaraq ailəmlə maraqlanıldığını, onların daim qayğı ilə



əhatə olunduğunu eşitdim və buna görə minnətdarlığımı bildirirəm. Hörmətli nazirimizin müharibə iştirakçıları ilə görüşü də böyük diqqətin təzahürüdür.

Əlavə olaraq onu da qeyd edim ki, qeydiyyatda olduğum Yardımlı rayon hərbi komissarlığına gedərkən rayonumuza axşam saatlarında çatmağıma baxmayaraq böyük bir izdihamla, təmtəraqlı şəkildə qarşılandım. İlk olaraq Şəhidlər xiyabanına şəhidlərimizin məzarını ziyarətə getdim. Məzunu olduğum məktəbimizdə şagird və müəllim kollektivi ilə görüş təşkil olundu. Bütün bunlar müharibə iştirakçılarının hər kəsin diqqət mərkəzində olmasından xəbər verir.

**-Xalqımızın 30 illik yurd həsrətinə son qoyan Vətən müharibəsinin başlandığı 27 sentyabr tarixi ölkəmizdə Anım Günü kimi qeyd olunur. Bu təqvimin sizin üçün mənası nədir?**

-30 illik işğala son qoyan "Dəmir yumruq" əməliyyatının başlandığı 27 sentyabr 2020-ci il tarixi Azərbaycan dövlətinin və millətinin birliyinin, ordumuzun və xalqımızın bir-birinə dəstək olduğu, ən əsası, 30 ildir yolumuzu gözləyən cənnətməkan Qarabağımızın azad olunması üçün Müzəffər Ali Baş Komandanın "Vur" əmrini verdiyi tarixdir. Bu tarix Vətən müharibəsində qəhrəmancasına döyüşmüş, Azərbaycan Bayrağını işğaldan azad edilən torpaqlarımızda dalğalandırmış, ölkəmizin ərazi bütövlüyü yolunda canlarını fəda etmiş əsgər və zabitlərimizə, bütün şəhidlərimizə dərin ehtiramın təzahürüdür. Allah bütün şəhidlərimizə rəhmət eləsin, qazılərimizə şəfa versin.

Qalib Azərbaycan Ordusunun zabiti kimi bu gün də Vətənimə, dövlətimə və xalqımıza xidmət etməyi özümə borc bilirəm və bundan sonra da hər bir azərbaycanlı kimi mən də Vətənin müdafiəsinə hazıram.

**Müsahibəni yazdı:**
**Mustafa KAMAL,**
**"Respublika".**

# Vətən sizə əmanətdir!



*2017-ci ildən əmək fəaliyyətini ədliyyə sahəsində davam etdirən İsa Eyvazzadə hazırda nazirliyin Məhkəmə ekspertizası mərkəzi Mühəndis-texniki ekspertizalar şöbəsinin eksperti vəzifəsində çalışır, III dərəcəli ədliyyə qulluqçusu xüsusi rütbəsindədir.*

*İ.Eyvazzadə Vətən müharibəsində torpaqlarımızın azad olunması ilə bağlı aparılan hərbi əməliyyatlarda iştirak edib. O, əsl vətəndaşlıq nümunəsi göstərərək və vəzifə borcunu şərəflə yerinə yetirərək fərqləndiyinə görə Ədliyyə Nazirliyi üzrə müvafiq əmrlə Fəxri fərmanla və digər mükafatlarla təltif olunmuşdur.*

*"Respublika" qəzetinin müxbiri Vətən müharibəsi iştirakçısı, ədliyyə işçisi İsa Eyvazzadənin döyüş yolu ilə bağlı təəssüratlarını qələmə almışdır. Həmin yazını oxucularımızın diqqətinə təqdim edirik.*

Dünyaya göz açıb, həyata ilk addımlarını atdığın, qoynunda boy atıb böyüdüyün torpaqdır Vətən. Çörəyini yeyib, suyunu içdiyin, havasını udduğun, sənə sahib çıxan bir məmləkətin çətin, ağır günündə güvəndiyi, arxalandığı isə sənsən, mənəm, bizik. Vətənin başının üstünü qara buludlar alanda bir yumruq tək birləşib ayağa qalxmaq, silaha sarılmaq kimi içdən gələn duyğu bir həqiqəti anladır bizə: Bu Vətənə bir can borcumuz var! Ən yaxın tariximizin acılarla dolu 30 illik işğal dövrü, qürur, sevinc gətirən 44 günlük müharibə bir də bunu anlatdı: Bu Vətən üçün döyüşməyə, onun uğrunda öldürməyə, ölməyə belə hazırıq, qadirik...

Şərəfli döyüş yolu keçmiş qəhrəmanımın düşüncələridir bu, elə mən də şərikəm. Hə, bir də bundan sonra yazılarımızın baş qəhrəmanı elə sizdən gələcək, Vətən oğulları!

Sovet dövründə uzun illər imperiyanın buxovları arasında sıxıldıqca, əlimiz, qolumuz bağlandıqca, sovet ideologiyasının milli ruhumuza, mənəviyyatımıza yad şüarlarından təngə gəlib azadlığa daha çox meyillənir, bəzən onu arzu, xəyal da hesab edirdik. Ancaq tarixin təkrarlandığını da yaxşı bilirdik. Kim bilir, bir kərə qazandığımız müstəqilliyə, bəlkə bir də qovuşa bildik, düşüncələri ilə yaşayırdıq. 1991-ci il oktyabrın 18-də imzalanan Müstəqillik Aktı bu arzuları gerçəkləşdirdi. İndi onun üstündən 30 il keçir. Müstəqilliyimizin otuzuncu ilini 30 illik işğala, zülmə son qoyan qalib xalq kimi qeyd etmək isə ikiqat sevincdir.

Bu yazıya belə ruhda başlamağım kimlərəsə




qəribə görünə bilər, ancaq həmsöhbətimin müstəqilliyimizin yaşıdı olması, istər-istəməz məni onun doğulduğu illərə çəkib apardı, o dövrün siyasi mənzərəsi, azadlığın bizə gətirdiyi "sürprizlər", başımıza gələn müsibətlər göz önünə gəldi... Bütün bunları isə o da yaşıdları kimi böyüklərdən eşitmiş, dərsliklərdən, kitablardan öyrənmişdi. Qərbi Azərbaycandan soydaşlarımızın öz yurd-yuvasından qovulması, doğma vətənində qaçqına, məcburi köçkünə dönməsi, ermənilərin törətdikləri vəhşiliklər, bəşəri cinayət Xocalı faciəsi... onun uşaq qəlbini elə göynədirdi ki... Birinci Qarabağ savaşının qəhrə-

manlarının adlarını bir-bir yaddaşına yazıb: "Kaş ki, o vaxtlar mən də olsaydım, mən də vuruşsaydım, bax, onda düşmən görərdi" -deyə uşaq ağlı ilə düşünürdü. Aprel döyüşləri, Tovuz hadisələrində itkilərimiz, xüsusilə də general-mayor Polad Həşimov və digər rütbəli zabitlərimizin ölümü onu çox sarsıtmışdı. Hətta bir dəfə atası ilə söhbətində: "Ata, bilirsən, hərdən qəribə hisslər keçirirəm. Kaş ki, Aprel, Tovuz döyüşlərində mən də döyüşə bilsəydim, deyə təəssüflənirəm..." Birinci Qarabağ döyüşlərinin iştirakçısı Namiq müəllim isə gülümsəyərək: "Qismətində varsa sən də döyüşəcəksən, Vətən səsləsə sən də gedəcəksən, lap mən də" -deyərək oğlunu bir az da cəsarətləndirmişdi. Və o gün gəldi...

Eyvazzadə İsa Namiq oğlu 1991-ci il noyabrın 17-də Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Maxta kəndində anadan olub. 1997-ci ilə qədər orada yaşayıb. Həmin il atasının işi ilə əlaqədar Lənkəran rayonuna köçüb, 1997-1999-cu illərdə burada yaşayıb, orta məktəbə də Lənkəran şəhərində gedib. 1999-cu ildə ailəlikcə Bakıya köçüblər və İsa orta təhsilini Sabunçu rayonundakı 96 saylı orta məktəbdə başa vurub. 2010-cu ildə Memarlıq və İnşaat Universitetinin memarlıq fakültəsinə qəbul olunub, 2014-cü ildə memarlıq ixtisası üzrə buranı bitirib. Naxçıvandakı N saylı hərbi hissədə 1 il əsgəri xidmətdə olan İsa tərxis olunduqdan sonra Heydər Əliyev adına Beynəlxalq Hava Limanında əmək fəaliyyətinə başlayıb. Bir müddət burada işləyib və sonra Ədliyyə Nazirliyinin strukturunda əmək fəaliyyətini davam etdirib.

İsanın döyüş yolu Füzulidən başlayır. 2020-ci il sentyabrın 27-də Bakıdan Beyləqan rayonuna yola düşən dəstə burada cəmləşərək rayonda bir neçə gün təlim keçib döyüşə hazır vəziyyətə gətirildi. Sentyabrın 30-da döyüşə girmək haqqında komanda gəldi. Döyüş başladı... Bu nə yuxu idi, nə də kino, real həqiqət idi, atəş səslərindən, uğultudan qulaq tutulur, göydən yağış kimi səpələnən güllə, mərmi qəlpələri altında müvafiq mövqe seçib düşmənə əks-həmlə endirilirdi. Döyüşlər Füzuli istiqamətində getsə də onları qrup şəklində başqa-başqa yerlərə "atır", qüvvəyə




ehtiyac duyulan mövqelərə təyin edirdilər. İsa tank briqadasına ehtiyat sürücü kimi qəbul edilsə də, sıravi əsgərlər, piyadalarla birgə, yanaşı döyüşlərin önündə olurdu. İsa deyir: "Müharibə, döyüş nə qədər dəhşətli görünsə də mən və mənim yoldaşlarımda zərrə qədər də qorxu hissi yox idi. Düşməndən qisas, intiqam almaq hissi bütün həyəcanımızı yox etmişdi, şüurlu şəkildə düşünür, bizə verilən komandanı yerinə yetirirdik. Bizimlə birgə döyüşən, bizdən yaşca kiçik olan uşaqların cəsarəti, hünəri hər kəsə sirayət edirdi. Əsgəri xidmətini başa vurub döyüşlər üçün qalan o yeniyetmələr əsl qəhrəmanlıq dastanı yazırdılar, biz də onlardan geri qalmamağa çalışırdıq. Qarşıda 30 ildən bəri düşmən tapdağı altında inləyən Vətən torpaqları bizi gözləyirdi..."

Bəli, bax, beləcə Vətən oğulları sözün həqiqi mənasında salnamə yazırdılar. Addım-addım irəliləyib azad etdikləri əraziyə üçrəngli bayrağımızı sancdıqca bizi qələbəyə bir az da yaxınlaşdırırdılar.

Noyabrın 2-si idi. Hadrutda gedən döyüşlərə ara vermək əmri gəldi. Şuşa uğrunda qızğın döyüşlərin getdiyini bilirdilər, quraşdırdıqları kiçik radiocihaz vasitəsilə xəbərləri, Prezident, Ali Baş Komandanın çıxışlarını dinləyə bilirdilər hərdən. Onları ya Ağdam, ya da Şuşa istiqamətində döyüşlərə cəlb etmək ehtimalı çox idi. Bir neçə gün gözləmə, müdafiə mövqeyində durmaq əsgərlərimizi heç də qane etmirdi, irəli getmək istəyirdilər. Noyabrın 8-i təkcə onlar üçün deyil, bütün ordumuz üçün də dönüş nöqtəsi oldu. Alınmaz qala Şuşa fəth edilmişdi. Ali Baş



Komandanın xalqa müraciətində verdiyi bu xoş xəbər yoldaşları kimi İsanı da çox sevindirmişdi: "Hansı hissləri keçirirdin?"-sualına cavabı qısa oldu: "Sözlə ifadə etməyə çətinlik çəkirəm, onu yaşamaq gərəkdi..."-dedi. Doğrudan da, müharibənin bitməsi, qələbə xəbərini döyüş meydanlarından uzaqda qarşılamaqla, düşmənlə göz-gözə dayanıb qarşılamağın fərqi böyükdür. Axı, sənin lap yaxınlığında dayanan düşmənə: "Biz qalib gəldik, qələbə bizimdir" deyə bağırıb, qışqırıb sevinməyin öz ləzzəti vardı... Və İsa 44 gün ərzində birlikdə döyüşdüyü, sıraları getdikcə azalan bölmənin əvəzolumaz komandirləri ilə birgə qələbə sevincini yaşadığı üçün xoşbəxt idi o an: "44 günün hər biri kədər, sevinc qarışıq günlər oldu. Bir qədər irəliləyib, hansısa kəndi, qəsəbəni azad edib sevinir, itirdiyimiz yoldaşlarımıza görə kədərlənir, qüssələnirdik. Müharibənin qanunu budur. Mən bu gün döyüşlərdən sağ-salamat çıxdığım üçün Tanrıma minnətdaram, deməli, bu, mənim alın yazım idi. Burada komandirlərimizin də haqqı, əməyi böyükdür. Rəhim Mehtiyev bizim tabor komandirimiz idi. Onun döyüşlərdəki şücaəti, qəhrəmanlığı, tabeliyində olan 180 nəfər şəxsi heyətə qarşı münasibəti həm digər komandirlərimizi, həm də biz əsgərləri cəsarətləndirir, qorxusuz edirdi. 2014-2015-ci illərdə Naxçıvanda 1 illik əsgərlik dövrümdə Qubadlıdan olan bir komandirimiz var idi: Vüqar Ağayev öz doğma ata-baba yurdunun işğaldan azad edilməsi uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid oldu. Valeh Məmiyev bölmə komandiri idi, tabeliyində olan şəxsi heyətə uğurla rəhbərlik edirdi. Son tikəsini belə tabeliyində olan əsgərləri ilə bölüşürdü. Keçən ilin may ayında Türkiyə silahlı qüvvələri ilə birgə keçirilən təlimlərdə Türkiyənin müdafiə naziri Hulusi Akar onun fəaliyyətini yüksək qiymətləndirmişdi. Dekabrın 30-da Bakıya gələn nazir onun ailəsi ilə görüşmüş, şəhid komandirin doğmalarına başsağlığı vermişdi. Allah bütün şəhidlərimizə rəhmət eləsin!.."

44 günlük şərəfli döyüş yolu keçən İsanı təəssüfləndirən daha bir şey var: Şuşa uğrunda gedən döyüşlərdə iştirak edə bilməmək. Bizim üçün isə heç bir fərqi yoxdur. Vətən müharibəsinin hər bir iştirakçısı ilə qürur duyuruq. Dəfələrlə ölümlə üzləşən İsa indi həyatın mənasını daha yaxşı başa düşür: "Ölümlə üz-üzə dayandığın anlarda sənə doğma, yaxın olanları düşünürsən, onlara sevgin bir az da artır. İndi yaşadığın hər günün qədrini daha yaxşı bilir, bu günün işini sabaha qoymamağa çalışırsan. Həyat gözündə şirinləşir".

Gələcək arzularını da soruşdum: "Sağlıq olsun, ikinci - hüquq təhsili almağı planlaşdırıram, işimdə irəli getmək istəyirəm, yerimdə saymaq istəmirəm. Bunun üçün üzərimdə çox çalışmalıyam. Şərəflə döyüşdüyüm üçün qürurluyam, ancaq özümü bu Vətənə hələ çox borclu bilirəm. Vətənimə, xalqıma layiq övlad, Prezidentimiz, Ali Baş Komandana layiq vətəndaş-əsgər olmağa çalışacağam. Axı, hansı sahədə çalışıb-çalışmağımızdan asılı olmayaraq, hər birimiz bu ölkənin əsgəriyik, hər sahədə Vətənə xidmət etmək şərəfdir. Vətən üçün döyüşdük, onun üçün də yaşayıb, qurub-yaratmalıyıq, hara səsləsə getməyə hazıram. Düşmənin xarabalığa çevirdiyi gözəl Qarabağımızı cənnət bir məkana çevirmək missiyasında iştirak etməkdən də qürur duyuram. Təki Vətən səsləsin!.."

Hazır ol əsgər, Vətənin hər çağırışına hazır ol, çünki Vətən sizə əmanətdir!..

**Zümrüd QURBANQIZI,**
**"Respublika"**

## Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 74-cü maddəsinin və Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 39, 40 və 305.1-ci maddələrinin əlaqəli şəkildə şərh edilməsinə dair

# AZƏRBAYCAN RESPUBLİKASI KONSTİTUSİYA MƏHKƏMƏSİ PLENUMUNUN QƏRARI

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu Fərhad Abdullayev (sədr), Sona Salmanova, Humay Əfəndiyeva, Rövşən İsmayılov, Ceyhun Qaracayev, Rafael Qvaladze, Mahir Muradov (məruzəçi-hakim), İsa Nəcəfov və Kamran Şəfiyevdən ibarət tərkibdə,

məhkəmə katibi Fəraid Əliyevin iştirakı ilə,

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin VI hissəsinə, "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun 27.2 və 32-ci maddələrinə və Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Daxili Nizamnaməsinin 39-cu maddəsinə müvafiq olaraq, xüsusi konstitusiya icraatının yazılı prosedur qaydasında keçirilən məhkəmə iclasında Gəncə Apellyasiya Məhkəməsinin müraciəti əsasında Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 74-cü maddəsinin və Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 39, 40 və 305.1-ci maddələrinin əlaqəli şəkildə şərh edilməsinə dair konstitusiya işinə baxdı.

İş üzrə hakim M.Muradovun məruzəsini, maraqlı subyektlərin nümayəndələri Gəncə Apellyasiya Məhkəməsinin Cinayət Kollegiyasının sədri T.Muxtarovun və Azərbaycan Respublikası Milli Məclisi Aparatının Dövlət quruculuğu, inzibati və hərbi qanunvericilik şöbəsinin İnzibati qanunvericilik sektorunun müdiri K.Paşayevanın, mütəxəssislər Azərbaycan Respublikası Ali Məhkəməsinin Cinayət Kollegiyasının sədri H.Nəsibovun, Bakı Apellyasiya Məhkəməsinin Cinayət Kollegiyasının sədri E.Rəhimovun və Azərbaycan Respublikası Baş Prokurorluğunun Hüquqi təminat və insan hüquqları məsələləri idarəsinin rəisi A.Osmanovanın mülahizələrini, ekspertlər Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin Cinayət prosesi kafedrasının müdiri, hüquq üzrə elmlər doktoru, professor F.Abbasovanın və Milli Aviasiya Akademiyasının Hüquq kafedrasının müdiri, hüquq üzrə elmlər doktoru A.Rüstəmzadənin rəylərini və iş materiallarını araşdırıb müzakirə edərək Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**MÜƏYYƏN ETDİ:**

Gəncə Apellyasiya Məhkəməsi Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə (bundan sonra - Konstitusiya Məhkəməsi) müraciət edərək Azərbaycan Respublikası Cinayət Məcəlləsinin (bundan sonra- Cinayət Məcəlləsi) 74-cü maddəsinin və Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin (bundan sonra - Cinayət-Prosessual Məcəlləsi) 39, 40 və 305-ci maddələrinin Azərbaycan Respublikası Konstitusiyasının (bundan sonra - Konstitusiya) 60, 71, 125 və 127-ci maddələri və "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Konvensiyanın 6-cı maddəsi baxımından şərh olunmasını xahiş etmişdir.

Müraciətdə qeyd olunur ki, Tərtər Hərbi Məhkəməsinin 12 fevral 2021-ci il tarixli hazırlıq iclasının qərarına əsasən, Cinayət Məcəlləsinin 350.1-1-ci maddəsi ilə təqsirləndirilən şəxs R.Məmmədov Cinayət Məcəlləsinin 74-cü maddəsinə müvafiq olaraq şəraitin dəyişməsi ilə bağlı onun şəxsiyyətinin ictimai təhlükəli olmadığı müəyyən edildiyindən cinayət məsuliyyətindən azad edilmiş və cinayət işi üzrə icraata xitam verilmişdir.

Dövlət ittihamçısı apellyasiya protesti verərək R.Məmmədov barəsində olan cinayət işi üzrə

icraata xitam verilməsinə dair Tərtər Hərbi Məhkəməsinin qərarının Cinayət-Prosessual Məcəlləsinin 399.1.4-cü maddəsinə əsasən ləğv edilməsini xahiş etmişdir.

Apellyasiya protesti onunla əsaslandırılmışdır ki, Cinayət Məcəlləsinin 74-cü maddəsinə istinad edilməklə cinayət işi və ya məhkəməyədək sadələşdirilmiş icraatın materialları üzrə icraata xitam verilməsi Cinayət-Prosessual Məcəlləsinin 40.3 və 40.4-cü maddələrinə əsasən deyil, məhz Cinayət-Prosessual Məcəlləsinin 40.2-ci maddəsinə əsasən mümkündür. Qanunverici məhkəmənin hazırlıq iclasında cinayət işi və ya məhkəməyədək sadələşdirilmiş icraatın materialları üzrə icraata xitam verilməsinin əsaslarını müəyyən edən Cinayət-Prosessual Məcəlləsinin 305-ci maddəsində həmin Məcəllənin 40.2-ci maddəsini göstərməməklə, şəraitin dəyişməsi nəticəsində törədilmiş əməlin və ya əməli törətmiş şəxsin ictimai təhlükəli olub-olmamasının yalnız məhkəmə baxışı zamanı tədqiq edilmiş sübutlar əsasında müəyyən edilməsinin mümkünlüyünü qeyd etmişdir. Belə olan halda məhkəmənin hazırlıq iclasında Cinayət Məcəlləsinin 74-cü maddəsinə istinad edilərək Cinayət-Prosessual Məcəlləsinin 305-ci maddəsinə əsasən cinayət işi üzrə icraata xitam verilməsi qanunvericiliyin tələblərinə uyğun olmamışdır. Digər tərəfdən Cinayət-Prosessual Məcəlləsinin 39-cu maddəsində cinayət təqibini istisna edən hallar nəzərdə tutulmuş, həmin Məcəllənin 40-cı maddəsində isə cinayət təqibinin həyata keçirilməməsinə imkan verən hallar təsbit edilmişdir. Həmin maddələrin məzmunundan görünür ki, Cinayət Məcəlləsinin 74-cü maddəsində nəzərdə tutulan hal cinayət təqibinin həyata keçirilməməsinə imkan verən hallara aiddir. Bununla da belə nəticəyə gəlmək olar ki, Cinayət Məcəlləsinin 74-cü maddəsi, yəni şəraitin dəyişməsi ilə bağlı cinayət məsuliyyətindən azad etmə Cinayət-Prosessual Məcəlləsinin 39.1.11-ci maddəsində nəzərdə tutulan cinayət qanunu müddəalarının qüvvəsinə görə şəxsin cinayət məsuliyyətindən azad edilməsi anlamını daşımır. Məhkəmə tərəfindən göstərilən normanın rəhbər tutularaq cinayət işi üzrə icraata xitam verilməsi qanunçuluq prinsipi ilə ziddiyyət təşkil edir.

Müraciətedənin qənaətinə görə, məhkəmə təcrübəsində Cinayət Məcəlləsinin 74-cü maddəsinə istinad edilərək hazırlıq iclasında cinayət təqibinə Cinayət-Prosessual Məcəlləsinin 39.1.11 və 305.1-ci maddələrinə əsasən xitam verilməsinin mümkünlüyü ilə bağlı fərqli mövqelər mövcuddur. Bu baxımdan vahid məhkəmə təcrübəsinin formalaşdırılması, cinayət və cinayət-prosessual qanunvericiliyi normalarının eyni qaydada tətbiqinin və hüquqi müəyyənlik prinsipinin təmin edilməsi məqsədi ilə yuxarıda qeyd olunan normaların şərh olunması zərurəti yaranmışdır.

Konstitusiya Məhkəməsinin Plenumu müraciətlə bağlı aşağıdakıları qeyd edir.

Konstitusiyanın 12-ci maddəsinin I hissəsi insan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsinin dövlətin ali məqsədi olduğunu təsbit edir. Dövlət hər kəsin hüquqlarının və azadlıqlarının müdafiəsinə təminat verir. Konstitusiyada təsbit edilmiş insan və vətəndaş hüquqlarını və azadlıqlarını gözləmək və qorumaq qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının borcudur. Dövlət orqanları yalnız bu Konstitusiya əsasında, qanunla müəyyən edilmiş qaydada və hüdudlarda fəaliyyət göstərə bilərlər (Konstitusiyanın 26-cı maddəsinin II hissəsi və 71-ci maddəsinin I və X hissələri).

Konstitusiyanın 60-cı maddəsinin I və II hissələrinə müvafiq olaraq hər kəsin hüquq və azadlıqlarının inzibati qaydada və məhkəmədə müdafiəsinə təminat verilir. Hər kəsin hüququ var ki, onun işinə qərəzsiz yanaşılsın və həmin işə inzibati icraat və məhkəmə prosesində ağlabatan müddətdə baxılsın.

Bu mənada, qanunla nəzərdə tutulmuş hallarda cinayət təqibinə (cinayət işi üzrə icraata) məhkəmədə xitam verilməsi prosedurları da hüquq və azadlıqların inzibati və məhkəmə təminatı hüququnun tərkib hissəsi kimi qəbul olunmalıdır.

Konstitusiya Məhkəməsinin Plenumu müraciətdə qaldırılan məsələlərin düzgün həll edilməsi üçün şəraitin dəyişməsi ilə bağlı cinayət məsuliyyətindən azad etməni nəzərdə tutan

cinayət qanununun normasının, eləcə də cinayət prosesinin mərhələlərindən biri olan məhkəmənin hazırlıq iclasının mahiyyətinin və hüquqi təbiətinin açıqlanmasını vacib hesab edir.

Cinayət Məcəlləsinin 74-cü maddəsinə görə, şəraitin dəyişməsi nəticəsində törədilmiş əməlin və ya bu əməli törətmiş şəxsin ictimai təhlükəli olmadığı müəyyən edildikdə, böyük ictimai təhlükə törətməyən cinayət və ya az ağır cinayət törətmiş şəxs cinayət məsuliyyətindən azad edilə bilər.

Cinayət-Prosessual Məcəlləsinin 305.1-ci maddəsinə əsasən, məhkəmənin hazırlıq iclasında bu Məcəllənin 39-cu, habelə 40.3 və 40.4-cü maddələrində nəzərdə tutulmuş hallar müəyyən edildikdə məhkəmə cinayət işi və ya məhkəməyədək sadələşdirilmiş icraatın materialları üzrə icraata xitam verilməsi haqqında əsaslandırılmış qərar çıxarır.

Şəxsin cinayət məsuliyyətindən azad edilməsi üçün Cinayət Məcəlləsinin 72.2, 73.2, 73.3, 73-1.1 və 73-1.2-ci maddələrində, habelə Xüsusi hissəsinin müvafiq maddələrində nəzərdə tutulmuş hallar müəyyən edildikdə təhqiqatçının və ya müstəntiqin prokurorla razılaşdırılmış qərarına əsasən cinayət təqibi başlanılmır və ya ona xitam verilir (Cinayət-Prosessual Məcəlləsinin 40.3-cü maddəsi).

Həmin Məcəllənin 40.4-cü maddəsinə uyğun olaraq, şəxsin iqtisadi fəaliyyət sahəsində olan cinayətlərə görə cinayət məsuliyyətindən azad edilməsi üçün Cinayət Məcəlləsinin 73-2-ci maddəsində nəzərdə tutulmuş hallar müəyyən edildikdə təhqiqatçının və ya müstəntiqin qərarına əsasən cinayət təqibi başlanılmır və ya ona xitam verilir.

Cinayət-Prosessual Məcəlləsinin 40.2-ci maddəsinə görə isə şəxsin cinayət məsuliyyətindən azad edilməsi üçün Cinayət Məcəlləsinin 72.1, 73.1, 73-1.3 və 74-cü maddələrində nəzərdə tutulmuş hallarda təhqiqatçının və ya müstəntiqin prokurorla razılaşdırılmış qərarına əsasən cinayət təqibi başlanılmaya və ya ona xitam verilə bilər.

Cinayət-Prosessual Məcəlləsinin 43.3-cü maddəsində qeyd olunmuşdur ki, məhkəmə baxışının gedişində təqsirləndirilən şəxsə qarşı cinayət təqibinə, həmçinin bu Məcəllənin 39.1.3, 39.1.12 və 40.2-ci maddələrində nəzərdə tutulmuş hallarda müdafiə tərəfinin razılığı ilə xitam verilməsi barədə məhkəmə qərar çıxarmağa haqlıdır.

Konstitusiya Məhkəməsinin Plenumu "Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 37.4, 39.1.9, 40.2 və 41.7-ci maddələrinin şərh edilməsinə dair" 2011-ci il 15 iyul tarixli Qərarında "cinayət məsuliyyətindən və cəzadan azad etmə" anlayışlarına aydınlıq gətirərək göstərmişdir ki, nəzəriyyədə cinayət məsuliyyətindən azad etmə dedikdə, törədilmiş cinayətə görə dövlətin şəxsi mühakimə etməkdən və ona cəza tətbiq etməkdən imtina etməsi başa düşülür. Cəzadan azad etmə isə məhkum olunmuş şəxsə cəzanın tətbiq edilməməsini və yaxud cəzanın qalan hissəsini çəkməkdən azad edilməsini nəzərdə tutur. Cinayət məsuliyyətindən azad etmə və cəzadan azad etmə aşağıdakılara görə fərqlənirlər:

- cinayət mühakimə icraatının mərhələlərinə görə;
- bu cür qərar qəbul etmək səlahiyyətinə malik olan şəxslərin və orqanların dairəsinə görə.

Cinayət məsuliyyətindən azad etmə həm məhkəməyədək mərhələdə, həm də məhkəmə baxışı mərhələsində mümkündür. Cəzadan azad etmə isə yalnız məhkəmə baxışı mərhələsində mümkündür.

Cinayət məsuliyyətindən prokurorun razılığı ilə təhqiqatçı və ya müstəntiq, habelə məhkəmə azad edə bilər. Cəzadan azad etmə isə məhkəmənin müstəsna səlahiyyətidir.

Cinayət məsuliyyətindən azad etmə müvafiq olaraq cəzadan azad etməni də əhatə edir. Bu zaman cinayət məsuliyyətindən azad etmənin ilkin anı - məhkəməyədək mərhələ, son anı - hökm elan olunanadək məhkəmə baxışı mərhələsidir. Bu mərhələdən sonra isə söhbət yalnız cəzadan azad etmədən gedə bilər.

Cinayət məsuliyyətindən azad etmə halları Cinayət Məcəlləsinin 72-75-ci maddələri ilə yanaşı, həmin Məcəllənin 20-ci (cinayət məsuliyyətinə cəlb etməyə imkan verən yaş həddinə çatmamaqla əlaqədar cinayət məsuliyyətindən azad etmə); 21-ci (ictimai təhlükəli əməli anlaqsız vəziyyətdə törətməklə bağlı cinayət məsuliyyətindən azad etmə); 30.2-ci (cinayət törətməkdən könüllü imtina etməklə əlaqədar

cinayət məsuliyyətindən azad etmə) və 81.2-ci (amnistiya aktı ilə cinayət məsuliyyətindən azad etmə) maddələrində də nəzərdə tutulmuşdur. Cinayət-Prosessual Məcəlləsinin tələblərinə görə, bu maddələrdə sadalanan halların mövcudluğu cinayət təqibinin həyata keçirilməməsi üçün əsas ola bilər.

Cinayət Məcəlləsinin 20, 21, 75 və 81.2-ci maddələrində göstərilən hallar ümumiyyətlə cinayət təqibini istisna edir. Belə ki, Cinayət-Prosessual Məcəlləsinin 39.1.3, 39.1.4, 39.1.10 və 39.1.12-ci maddələrinin imperativ xarakterinə əsasən, yuxarıda göstərilən hallardan hər hansı biri aşkar olunduqda şəxs barəsində cinayət təqibi başlanılmır, artıq başlanmış icraat gedişində aşkar olunduqda isə cinayət təqibinə xitam verilir.

Bundan fərqli olaraq, Cinayət Məcəlləsinin 72-74-cü maddələrində nəzərdə tutulmuş hallarda cinayət işinin başlanılmaması və ya ona xitam verilməsi təhqiqatçının, müstəntiqin və ya prokurorun vəzifəsi deyil, hüququdur və bu hüququn həyata keçirilməsinin öz xüsusiyyətləri vardır.

Qeyd edildiyi kimi, şəraitin dəyişməsi ilə bağlı cinayət məsuliyyətindən azad etmə Cinayət Məcəlləsinin 74-cü maddəsində nəzərdə tutulmuşdur.

Cinayət hüquq nəzəriyyəsində şəraitin dəyişməsi dedikdə, cinayət törədilən ana qədər mövcud olan vəziyyətlə müqayisədə şəxsin həyatında şəraitin ciddi surətdə dəyişməsi başa düşülür. Belə hallarda şəraitin dəyişməsi şəxsin həyatı ilə bağlı olur. Bu, cinayət törədən şəxsin yaşayış yerini dəyişməsində, ali məktəbə daxil olmasında, həqiqi hərbi xidmətə getməsində və s. ifadə oluna bilər. Bundan başqa, şəraitin dəyişməsi siyasi, iqtisadi və sosial sahələrdə baş verən dəyişikliklərlə də bağlı ola bilər. Belə dəyişiklik ölkə miqyasında və ya müəyyən regionda, şəhərdə və s. ərazidə baş verə bilər. Şəraitin dəyişməsinin nisbətən geniş miqyasda baş verməsi ictimai münasibətlər sistemində elə dəyişikliyi nəzərdə tutur ki, bunun təsiri ilə cinayət əməli öz maddi əlamətini - ictimai təhlükəliliyini itirir.

Cinayət təqibini istisna edən halları nəzərdə tutan Cinayət-Prosessual Məcəlləsinin 39-cu maddəsi bir sıra istisnalarla elə halların sistemini müəyyən edir ki, bu hallar mövcud olarsa, cinayət təqibi (cinayət işi) başlanıla bilməz, başlanmış cinayət təqibinə (cinayət işinə) isə xitam verilməlidir. Həmin maddədə nəzərdə tutulmuş hallarda müvafiq qərarın qəbul edilməsi cinayət prosesini həyata keçirən orqanın hüququ deyil, vəzifəsidir.

Cinayət-Prosessual Məcəlləsinin 40-cı maddəsi də müvafiq halların sistemini müəyyən edir, lakin həmin Məcəllənin 39-cu maddəsində nəzərdə tutulan hallardan fərqli olaraq, bu maddədə sadalanan hallar cinayət təqibinin həyata keçirilməməsinə imkan verir.

Qeyd edilməlidir ki, Cinayət-Prosessual Məcəlləsinin 40-cı maddəsində iki növdə olan hallar təsbit edilmişdir. Birincisi, cinayət prosesini həyata keçirən orqanların mülahizəsinə görə cinayət təqibinin həyata keçirilməməsinə imkan verən hallar. Belə ki, Cinayət-Prosessual Məcəlləsinin 40.2-ci maddəsinə əsasən, şəxsin cinayət məsuliyyətindən azad edilməsi üçün Cinayət Məcəlləsinin 72.1, 73.1, 73-1.3 və 74-cü maddələrində nəzərdə tutulmuş hallarda təhqiqatçının və ya müstəntiqin prokurorla razılaşdırılmış qərarına əsasən cinayət təqibi başlanılmaya və ya ona xitam verilə bilər. Bu hallarda cinayət təqibinin başlanılmaması və ya ona xitam verilməsi cinayət prosesini həyata keçirən orqanların hüququ olaraq qalır (onlar üçün məcburi xarakter kəsb etmir).

İkincisi, cinayət təqibinin həyata keçirilməməsinin cinayət prosesini həyata keçirən orqanların mülahizəsindən asılı olmadığı hallar. Belə ki, Cinayət-Prosessual Məcəlləsinin 40.3-cü maddəsinə əsasən, şəxsin cinayət məsuliyyətindən azad edilməsi üçün Cinayət Məcəlləsinin 72.2, 73.2, 73.3, 73-1.1 və 73-1.2-ci maddələrində, habelə Xüsusi hissəsinin müvafiq maddələrində nəzərdə tutulmuş hallar müəyyən edildikdə təhqiqatçının və ya müstəntiqin prokurorla razılaşdırılmış qərarına əsasən cinayət təqibi başlanılmır və ya ona xitam verilir.

Cinayət-Prosessual Məcəlləsinin 40.4-cü maddəsinə əsasən isə şəxsin iqtisadi fəaliyyət sahəsində olan cinayətlərə görə cinayət məsuliyyətindən azad edilməsi üçün Cinayət Məcəlləsinin 73-2-ci maddəsində

nəzərdə tutulmuş hallar müəyyən edildikdə təhqiqatçının və ya müstəntiqin qərarına əsasən cinayət təqibi başlanılmır və ya ona xitam verilir. Göründüyü kimi, bu hallarda cinayət təqibinin başlanılmaması və ya ona xitam verilməsi artıq cinayət prosesini həyata keçirən orqanların vəzifəsi kimi göstərilir (onlar üçün məcburi xarakter kəsb edir).

Beləliklə, Cinayət-Prosessual Məcəlləsinin 40.3 və 40.4-cü maddələri imperativ qaydada şəxsin cinayət məsuliyyətindən azad edilməsini nəzərdə tutduğu halda, həmin Məcəllənin 40.2-ci maddəsində göstərilən hallar üzrə (Cinayət Məcəlləsinin 72.1, 73.1, 73-1.3 və 74-cü maddələri) şəxsin cinayət məsuliyyətindən azad edilməsi cinayət prosesini həyata keçirən orqanın vəzifəsi kimi nəzərdə tutulmamış və qanunverici bu halları cinayət təqibini həyata keçirən orqanların və ya məhkəmənin mülahizəsinə buraxmışdır.

Qeyd edildiyi kimi, Cinayət-Prosessual Məcəlləsinin 305.1-ci maddəsinə əsasən, məhkəmənin hazırlıq iclasında Cinayət-Prosessual Məcəlləsinin 39-cu (cinayət təqibini istisna edən hallar), habelə 40.3 və 40.4-cü maddələrində nəzərdə tutulmuş hallar (cinayət təqibinin həyata keçirilməməsinin cinayət prosesini həyata keçirən orqanların mülahizəsindən asılı olmadığı hallar) müəyyən edildikdə məhkəmə cinayət işi və ya məhkəməyədək sadələşdirilmiş icraatın materialları üzrə icraata xitam verilməsi haqqında əsaslandırılmış qərar çıxarır.

Göründüyü kimi, Cinayət-Prosessual Məcəlləsinin 305.1-ci maddəsində həmin Məcəllənin 40.2-ci maddəsi ona görə göstərilməmişdir ki, bu maddədəki hallarla, Cinayət-Prosessual Məcəlləsinin 40.3 və 40.4-cü maddələrində nəzərdə tutulmuş hallar cinayət prosesini həyata keçirən orqanlar üçün məcburilik əlamətinə görə bir-birindən fərqlənirlər. Bu, o deməkdir ki, məhkəmə cinayət təqibinə Cinayət-Prosessual Məcəlləsinin 40.2-ci maddəsində nəzərdə tutulmuş əsasla, yəni öz mülahizəsinə görə hazırlıq iclasında deyil, yalnız məhkəmə baxışında xitam verə bilər.

Eyni zamanda vurğulanmalıdır ki, Cinayət-Prosessual Məcəlləsinin 40.2-ci maddəsində göstərilən hallarda məhkəmə tərəfindən hazırlıq iclasında cinayət təqibinə xitam verilməsinin nəzərdə tutulmaması cinayət mühakimə icraatının həyata keçirilməsi mərhələlərinin hüquqi təbiəti ilə də əlaqədardır.

Belə ki, Cinayət-Prosessual Məcəlləsinin 299.1-ci maddəsinə müvafiq olaraq, məhkəmənin hazırlıq iclası cinayət işində, məhkəməyədək sadələşdirilmiş icraatın materiallarında və ya xüsusi ittiham qaydasında şikayətdə irəli sürülmüş ittihamın mahiyyəti üzrə cinayət prosesi tərəflərinin iştirakı ilə məhkəmə baxışının təyin edilməsinin mümkünlüyünün yoxlanılması məqsədi ilə ilkin dinləmələrdən ibarətdir. Həmçinin məhkəmənin hazırlıq iclası zamanı ittiham və müdafiə tərəflərinin məhkəmə baxışı zamanı təqdim etdikləri sübutların siyahısı barədə, məhkəmə baxışından sübut kimi yolverilməz materialların xaric edilməsi barədə məsələlər həll edilir (Cinayət-Prosessual Məcəlləsinin 299.4.2 və 299.4.3-cü maddələri).

Cinayət-Prosessual Məcəlləsinin 299-cu maddəsinin məzmunundan göründüyü kimi, məhkəmənin hazırlıq iclasının mahiyyəti ondan ibarətdir ki, məhkəmə iş üzrə sübutların qiymətləndirilməsinə yönələn hərəkətlər etmədən və məhkəməyə verilmiş şəxsin təqsirlilik məsələsini həll etmədən, bu məsələlərin məhkəmə iclasında həll edilməsi üçün faktiki halların kifayət edib-etməməsi və məhkəmə baxışının təyin edilməsinin mümkün olub-olmaması ilə bağlı tərəflərin fikrini öyrənərək müəyyən nəticəyə gəlir.

Məhkəmənin hazırlıq iclasının əhəmiyyəti isə ondan ibarət olur ki, məhz bu mərhələ faktiki halları tam şəkildə tədqiq edilməmiş işlərin, eləcə də prosessual qanunun kobud pozulmasına yol verilmiş işlərin məhkəmə baxışına verilməsinin qarşısının alınmasına təminat yaradır. Başqa sözlə, məhkəmənin hazırlıq iclası məhkəmə baxışı üçün zəruri şəraitin yaradılmasını, məhkəmə iclasının uğurla həyata keçirilməsini təmin edir.

Cinayət Məcəlləsinin 74-cü maddəsinin tətbiqi ilə şəxsin cinayət məsuliyyətindən azad edilməsi və bununla əlaqədar olaraq onun barəsində cinayət təqibinə xitam verilməsi üçün, ilk növbədə, şəxsin təqsiri

müəyyən edilməli, bundan sonra şəraitin dəyişmiş olmasına dəlalət edən hallar müəyyən edilərək qiymətləndirilməlidir.

Hazırlıq iclasının mahiyyəti və əhəmiyyəti nəzərə alınaraq qeyd edilməlidir ki, Cinayət Məcəlləsinin 74-cü maddəsində göstərilən halların, o cümlədən şəxsin təqsirinin müəyyən edilməsi məhkəmənin hazırlıq iclasında mümkün deyil.

Burada həmçinin nəzərə almaq lazımdır ki, Cinayət-Prosessual Məcəlləsinin 7.0.9-cu maddəsinə əsasən, ədalət mühakiməsi məhkəmə tərəfindən həyata keçirilir. Cinayət mühakimə icraatı zamanı ədalət mühakiməsi həyata keçirilərkən cinayət işlərinə və ya məhkəməyədək sadələşdirilmiş icraatın materiallarına cinayət-prosessual qanunvericiliyinin qəbul olunmuş prinsip və vəzifələri çərçivəsində baxılmalıdır.

Konstitusiya Məhkəməsi Plenumunun formalaşdırdığı hüquqi mövqeyə görə, məhkəmənin nüfuzunun yüksəldilməsi insan hüquq və azadlıqlarının müdafiəsi üzrə məhkəmənin qarşısında duran vəzifələrin icrasına xidmət edən ədalət mühakiməsinin demokratik prinsiplərinin təsbiti və həyata keçirilməsi ilə ayrılmaz surətdə bağlıdır. Ədalət mühakiməsinin əsas prinsipləri Konstitusiyanın 127-ci maddəsində müəyyənləşdirilmiş və sonradan digər qanunvericilik aktlarında, o cümlədən Cinayət-Prosessual Məcəlləsində daha geniş əks olunmuşdur. Bu prinsiplər sırasında qanunçuluq prinsipi mühüm və xüsusi yerə malikdir. O, həm Konstitusiyada, həm də maddi və prosessual qanunvericilikdə təsbit olunaraq, yalnız qanunlara dəqiq və dönmədən riayət olunmasını və onların icrasını nəzərdə tutmur. Qanunçuluq həmçinin hüquqi dövlətin mühüm prinsipi, məhkəmə icraatında isə ədalət mühakiməsinin təməlini təşkil edən başlıca əlamətlərdən biridir. Qanunçuluq prinsipinin əsas mahiyyəti ondan ibarətdir ki, o, nəinki hakimlərin yalnız Konstitusiyaya və qanunlara tabe olmasını bərqərar edir, həm də məhkəmə tərəfindən aşkarlanmış qanun pozuntularının aradan qaldırılması vəzifəsinə və iş üzrə hər kəsin məhkəmə müdafiəsinin təminatına, vətəndaşların hüquq və azadlıqlarının təmin olunmasına xidmət etməklə, ədalətli məhkəmə araşdırmasının digər prinsiplərinin həyata keçirilməsi şərtilə bütövlükdə məhkəmə icraatının məqsədini müəyyənləşdirir. Cinayət məhkəmə icraatı üzrə məhkəmə Konstitusiya və prosessual qanunla (Cinayət-Prosessual Məcəlləsinin 8-36-cı maddələri) nəzərdə tutulmuş prinsip və şərtlər üzrə ədalət mühakiməsini həyata keçirən orqandır ("Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 397.1 və 397.2-ci maddələrinin şərh edilməsinə dair" 2009-cu il 12 may tarixli Qərar).

Cinayət mühakimə icraatının obyektivliyi, qərəzsizliyi və ədalətliliyi prinsipi tələb edir ki, məhkəmələr cinayət işlərinə və cinayət təqibi ilə bağlı digər materiallara məhkəmə iclaslarında yalnız Cinayət-Prosessual Məcəlləsinə müvafiq surətdə müəyyən edilmiş hüquqi prosedurlara uyğun faktlar əsasında, qərəzsiz və ədalətlə baxmalıdırlar (Cinayət-Prosessual Məcəlləsinin 28.1-ci maddəsi).

Cinayət mühakimə icraatında tərəflərin çəkişməsi prinsipi isə Azərbaycan Respublikasında cinayət mühakimə icraatının ittiham və müdafiə tərəfinin çəkişməsi əsasında həyata keçirilməsini nəzərdə tutmaqla, hər bir tərəfin məhkəmədə təmsil olunmasını və öz mövqeyini müdafiə etmək üçün bərabər hüquqlara və imkanlara malik olmalarını ehtiva edir (Cinayət-Prosessual Məcəlləsinin 32.2.1 və 32.2.2-ci maddələri).

Həmçinin Cinayət-Prosessual Məcəlləsinin 33-cü maddəsində nəzərdə tutulmuş cinayət mühakimə icraatında sübutların qiymətləndirilməsi prinsipi hakimlərdən cinayət mühakimə icraatının həyata keçirilməsində cinayət işi üzrə toplanmış sübutları bu Məcəllənin tələblərinə əsasən qiymətləndirməyi tələb edir. Bu prinsipə görə cinayət mühakimə icraatı həyata keçirilərkən bu Məcəllənin 125, 144-146-cı maddələrinin müddəalarının pozulması, hakimlərin sübutlara və sair materiallara qərəzli münasibət bəsləməsi, mövcud hüquqi prosedur daxilində tədqiq edilənədək sübut və digər materiallardan birinə digərinə nisbətdə çox və ya az əhəmiyyət verilməsi yolverilməzdir və cinayət prosesində heç bir sübutun və digər materialın qabaqcadan müəyyən

edilmiş qüvvəsi yoxdur (Cinayət-Prosessual Məcəlləsinin 33.2, 33.3 və 33.4-cü maddələri).

Cinayət-Prosessual Məcəlləsinin 346.1-ci maddəsində məhkəmə baxışının nəticələrinə dair müşavirə otağında məhkəmə tərəfindən müzakirə edilən məsələlər sırasında cinayət hadisəsinin və təqsirləndirilən şəxsin törətdiyi əməldə cinayət tərkibinin olmasının sübuta yetirilib-yetirilməməsi, cinayət məsuliyyətindən azad etmə üçün əsasların olub-olmaması müəyyən olunmuşdur.

Göstərilən normaların təhlilindən göründüyü kimi, cinayət əməlinin və ya əməli törətmiş şəxsin ictimai təhlükəliliyini itirib-itirməməsi, şəraitin dəyişməsinə görə şəxsin cinayət məsuliyyətindən azad edilməsi üçün əsasların olub-olmamasına dair sübutlara məcmu halında, məhkəmə baxışı mərhələsində qiymət verilməlidir.

Məhz buna görə də Cinayət-Prosessual Məcəlləsinin 43.3-cü maddəsində göstərilmişdir ki, məhkəmə baxışının gedişində təqsirləndirilən şəxsə qarşı cinayət təqibinə, həmçinin bu Məcəllənin 39.1.3, 39.1.12 və 40.2-ci maddələrində nəzərdə tutulmuş hallarda müdafiə tərəfinin razılığı ilə xitam verilməsi barədə məhkəmə qərar çıxarmağa haqlıdır.

Göstərilənləri nəzərə alaraq Konstitusiya Məhkəməsinin Plenumu belə nəticəyə gəlir ki, Konstitusiyanın 60-cı maddəsinin I hissəsinin, 127-ci maddəsinin II hissəsinin, Cinayət-Prosessual Məcəlləsinin 39, 40.2, 43.3, 299 və 305.1-ci maddələrinin tələblərinə uyğun olaraq, Cinayət Məcəlləsinin 74-cü maddəsində nəzərdə tutulmuş hallar yalnız məhkəmə baxışının gedişində müəyyən edildikdə cinayət təqibinə müdafiə tərəfinin razılığı ilə xitam verilə bilər.

Bununla yanaşı Konstitusiya Məhkəməsinin Plenumu hesab edir ki, müraciətdə qaldırılan məsələlərin həlli zamanı hüquqi müəyyənlik prinsipi, eləcə də Konstitusiya Məhkəməsi Plenumunun bununla bağlı formalaşdırdığı hüquqi mövqelər əsas götürülməlidir. Hüquqi müəyyənlik prinsipi hüququn aliliyinin əsas aspektlərindən biri kimi çıxış edir. Hər bir qanunun və ya onun hər hansı bir müddəasının hüquqi müəyyənlik prinsipinə cavab verməsi olduqca vacibdir. Bunun təmin edilməsi üçün hüquq normaları birmənalı və aydın olmalıdır. Bu öz növbəsində hər kəsə onun hüquq və azadlıqlarını müdafiə edəcəyinə, hüquqtətbiqedənin hərəkətlərinin isə proqnozlaşdırıla bilən olacağına əminlik verməlidir ("Azərbaycan Respublikasında hərbi xidmətə çağırışın əsasları haqqında" Azərbaycan Respublikası Qanununun 21-ci maddəsinin və Azərbaycan Respublikası Cəzaların İcrası Məcəlləsinin 180.3-cü maddəsinin müddəalarının şərh edilməsinə dair" 2008-ci il 22 sentyabr tarixli Qərar).

Cinayət hüquq norması qəbul edilərkən qanunçuluğun prinsiplərindən olan qanunun aliliyi, vahidliyi, məqsədəuyğunluğu və qanunçuluğun reallığı prinsiplərinə riayət olunmasına xüsusi diqqət yetirilməlidir. Sadalanan prinsiplərə əməl olunması Konstitusiyada təsbit olunmuş bərabərlik, mütənasiblik, hüquqi müəyyənlik, tarazlıq prinsiplərindən irəli gəlir. Cinayət hüquq normalarının dəqiqliyi, aydınlığı, birmənalılığının ümumhüquqi meyarları hamının qanun və məhkəmə qarşısında bərabərliyi prinsipindən irəli gəlir və bu meyarlar Cinayət Məcəlləsinin qanunçuluq prinsipinin təmin edilməsinə xidmət edir. Belə ki, hamının qanun və məhkəmə qarşısında bərabərlik və qanunçuluq prinsiplərinin təmin edilməsi yalnız cinayət hüquq normalarının bütün hüquqtətbiqedən orqanlar tərəfindən vahid anlaşılması və şərhi nəticəsində mümkündür. Əksinə, qanunçuluq prinsipi baxımından hüquq normalarının məzmununun qeyri-müəyyənliyi hüquq tətbiqetmə prosesində hədsiz mülahizələrə və özbaşınalığa gətirib çıxarmaqla bərabərlik, qanunun aliliyi prinsiplərini pozmuş olar (Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 182.2.4-cü maddəsinin şərh edilməsinə dair" 2011-ci il 21 oktyabr tarixli Qərarı).

İnsan Hüquqları üzrə Avropa Məhkəməsi bir çox qərarlarında göstərmişdir ki, əsas hüquqların məhdudlaşdırılması yalnız o halda qanunla müəyyən olunmuş hesab edilə bilər ki, şüurlu şəxs norma ilə tanış olaraq və hüquqşünasın

yardımına və ya məhkəmə təcrübəsinə müraciət etmədən öz hərəkətlərinin nəticələrini kifayət qədər dəqiq dəyərləndirə bilsin. Məhkəmə, həmçinin hesab etmişdir ki, baxılan aspektdə hüquqi müəyyənlik üçün əsas təhlükəni hədsiz ümumi ifadələr, əsas terminlərin açıqlanmaması və ya eyni terminlərin müxtəlif qanunlarda müxtəlif şərhlərinin mövcudluğu yaradır (Landvreugd Hollandiyaya qarşı iş üzrə 2002-ci il 4 iyun tarixli, Brumaresku Rumıniyaya qarşı iş üzrə 1999-cu il 28 oktyabr tarixli Qərarlar).

Qeyd olunanlarla yanaşı Konstitusiya Məhkəməsinin Plenumu xüsusilə vurğulamağı vacib bilir ki, hüquqtətbiqedici tərəfindən mübahisə doğurmayan qanunvericilik normasının yanlış təfsir edilərək başqa qaydada tətbiq olunması hüquqi müəyyənlik prinsipinin pozulmasına gətirib çıxara bilər. Cinayət mühakimə icraatında cinayət prosesini həyata keçirən orqanların hər bir prosessual hərəkətləri qanunvericilikdə dəqiq və birmənalı tənzimlənmişdir. Hüquqi müəyyənlik prinsipi onu da tələb edir ki, bu orqanlar cinayət-prosessual qanunvericiliyindən kənar hərəkətlərə yol verməməli, cinayət təqibi zamanı qanunvericilikdə müəyyən olunmuş cinayət prosesi mərhələlərinin xüsusiyyətlərinə, ardıcıllıqlarına, təyinatına, prosessual hədlərinə və s. dəqiq riayət etməlidirlər. Cinayət prosesinin hər bir mərhələsinin qarşısında duran vəzifələrin düzgün yerinə yetirilməsi nəticə etibarı ilə cinayət mühakimə icraatının vəzifələrinin həyata keçirilməsinə xidmət etməklə, hər kəsin hüquqlarının müdafiəsinə təminat vermiş olur.

Beləliklə, Konstitusiya Məhkəməsinin Plenumu hesab edir ki, Cinayət Məcəlləsinin 74-cü maddəsində nəzərdə tutulmuş şəraitin dəyişməsinə görə məhkəmənin hazırlıq iclasında cinayət təqibinə xitam verilməsi hüquqi müəyyənlik prinsipinin tələblərinə cavab verməmiş olur.

Müraciətdə qaldırılan digər məsələ Cinayət Məcəlləsinin 74-cü maddəsinə istinad edilərək Cinayət-Prosessual Məcəlləsinin 39.1.11-ci maddəsinə əsasən cinayət təqibinə xitam verilməsinin mümkünlüyü və bununla əlaqədar "cinayət qanunu müddəalarının qüvvəsinə görə cinayət məsuliyyətindən azad etmə" normasının mənasının və prosessual əsas kimi tətbiq dairəsinin müəyyənləşdirilməsi ilə bağlıdır.

İlk növbədə qeyd olunmalıdır ki, Cinayət-Prosessual Məcəlləsinin 39.1.11-ci maddəsində "cinayət qanunu müddəalarına" görə deyil, məhz "cinayət qanunu müddəalarının qüvvəsinə görə cinayət məsuliyyətindən azad etmə" anlayışından istifadə edilməsi Cinayət Məcəlləsinin "Cinayət qanununun qüvvəsi"ni təsbit edən 2-ci fəslindən irəli gəlir.

Belə ki, cinayət qanunu müddəalarının qüvvəsinə görə şəxsin cinayət məsuliyyətindən azad edilməsi əsasları cinayət qanununun zamana və məkana görə qüvvəsini təsbit edən normalara şamil edilə bilər. Cinayət qanununun məkana görə qüvvəsinə əsasən cinayət məsuliyyətindən azad etmə Cinayət Məcəlləsinin 12.1-ci maddəsində nəzərdə tutulmuş hallarda tətbiq olunur. Həmin maddəyə əsasən, Azərbaycan Respublikasının vətəndaşları və Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasının hüdudlarından kənarda törətdikləri əmələ (hərəkət və ya hərəkətsizliyə) görə, bu əməl həm Azərbaycan Respublikasının, həm də ərazisində törədildiyi xarici dövlətin qanunvericiliyinə əsasən cinayət sayılırsa və bu cinayətə görə həmin şəxslər xarici dövlətdə məhkum olunmamışlarsa, bu Məcəllə əsasında cinayət məsuliyyətinə cəlb edilirlər.

Beləliklə, şəxs tərəfindən törədilən əməl Azərbaycan Respublikasının və ya ərazisində törədildiyi xarici dövlətin qanunvericiliyinə əsasən cinayət sayılmırsa, prosessual hüquq norması kimi Cinayət-Prosessual Məcəlləsinin 39.1.11-ci maddəsinə əsaslanmaqla şəxs cinayət məsuliyyətindən azad edilir.

Cinayət qanununun zamana görə qüvvəsinə əsasən cinayət məsuliyyətindən azad etmə isə Cinayət Məcəlləsinin 10-cu maddəsində nəzərdə tutulmuş hallar mövcud olduqda tətbiq edilir. Həmin maddəyə görə, əməlin (hərəkət və ya hərəkətsizliyin) cinayət sayılması və həmin əmələ görə cəza, bu əməlin (hərəkət və ya hərəkətsizliyin) törədildiyi zaman qüvvədə olan cinayət qanunu ilə müəyyən edilir. Törədildiyi zaman cinayət sayılmayan əmə-

lə görə heç kəs cinayət məsuliyyətinə cəlb oluna və cəzalandırıla bilməz. İctimai təhlükəli əməlin (hərəkət və ya hərəkətsizliyin) törədilmə vaxtı, onun nəticələrinin baş verdiyi andan asılı olmayaraq, cinayətin törədildiyi vaxt sayılır. Əməlin (hərəkət və ya hərəkətsizliyin) cinayət sayılmasını və bu əmələ görə cəzanı aradan qaldıran, cəzanı yüngülləşdirən, yaxud cinayət etmiş şəxsin vəziyyətini başqa cür yaxşılaşdıran cinayət qanununun geriyə qüvvəsi vardır, yəni həmin qanunun qüvvəyə minməsindən əvvəl müvafiq əməli (hərəkət və ya hərəkətsizliyi) törətmiş şəxslərə şamil edilir.

Konstitusiya Məhkəməsinin Plenumu hesab edir ki, qeyd edilən hallarda da cinayət təqibini və ya cinayət mühakimə icraatını həyata keçirən orqanlar Cinayət-Prosessual Məcəlləsinin 39.1.11-ci maddəsinə əsaslanmaqla şəxsi cinayət məsuliyyətindən azad edir.

Müraciətdə göstərilən məsələyə münasibətdə isə qeyd olunmalıdır ki, Cinayət Məcəlləsinin 74-cü maddəsinə əsasən şəraitin dəyişməsinə görə cinayət məsuliyyətindən azad etmə cinayət təqibini istisna edən halları nəzərdə tutan Cinayət-Prosessual Məcəlləsinin 39.1.11-ci maddəsindəki halı ona görə ehtiva edə bilməz ki, əks hal cinayət mühakimə icraatını həyata keçirən orqanlar üçün məcburi olan normanın dispozitiv formada şərhinə gətirib çıxarar. Şəraitin dəyişməsi halı (Cinayət Məcəlləsinin 74-cü maddəsi) cinayət-prosessual qanunvericiliyinə müvafiq olaraq cinayət təqibi orqanının mülahizəsinə əsasən xitam verilən cinayət təqibinin həyata keçirilməməsinə imkan verən hallara aid olduğundan, qanunverici onun tətbiqinin prosessual əsası qismində yalnız Cinayət-Prosessual Məcəlləsinin 40.2-ci maddəsini nəzərdə tutmuşdur.

Odur ki, Cinayət-Prosessual Məcəlləsinin 39.1.11-ci maddəsindəki "cinayət qanunu müddəalarının qüvvəsinə görə" müddəası cinayət qanununun zamana və məkana görə qüvvəsinə əsasən cinayət məsuliyyətindən azad etməni ehtiva edir.

Göstərilənləri nəzərə alaraq Konstitusiya Məhkəməsinin Plenumu aşağıdakı nəticələrə gəlir:

- Konstitusiyanın 60-cı maddəsinin I hissəsinin, 127-ci maddəsinin II hissəsinin, Cinayət-Prosessual Məcəlləsinin 39, 40.2, 43.3, 299 və 305.1-ci maddələrinin tələblərinə uyğun olaraq, Cinayət Məcəlləsinin 74-cü maddəsində nəzərdə tutulmuş hallar yalnız məhkəmə baxışının gedişində müəyyən edildikdə cinayət təqibinə müdafiə tərəfinin razılığı ilə xitam verilə bilər;

-Cinayət-Prosessual Məcəlləsinin 39.1.11-ci maddəsinin "cinayət qanunu müddəalarının qüvvəsinə görə" müddəası cinayət qanununun zamana və məkana görə qüvvəsinə əsasən cinayət məsuliyyətindən azad etməni nəzərdə tutur.

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin VI hissəsini və "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun 60, 62, 63, 65-67 və 69-cu maddələrini rəhbər tutaraq, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**QƏRARA ALDI:**

1. Azərbaycan Respublikası Konstitusiyasının 60-cı maddəsinin I hissəsinin, 127-ci maddəsinin II hissəsinin, Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 39, 40.2, 43.3, 299 və 305.1-ci maddələrinin tələblərinə uyğun olaraq, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 74-cü maddəsində nəzərdə tutulmuş hallar yalnız məhkəmə baxışının gedişində müəyyən edildikdə cinayət təqibinə müdafiə tərəfinin razılığı ilə xitam verilə bilər.

2. Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 39.1.11-ci maddəsinin "cinayət qanunu müddəalarının qüvvəsinə görə" müddəası cinayət qanununun zamana və məkana görə qüvvəsinə əsasən cinayət məsuliyyətindən azad etməni nəzərdə tutur.

3. Qərar dərc edildiyi gündən qüvvəyə minir.

4. Qərar "Azərbaycan", "Respublika", "Xalq qəzeti", "Bakinski raboçi" qəzetlərində və "Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Məlumatı"nda dərc edilsin.

5. Qərar qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv edilə, dəyişdirilə və ya rəsmi təfsir edilə bilməz.

**Sədr**
**Fərhad Abdullayev**
*Bakı şəhəri, 14 sentyabr 2021-ci il*

# QANUNÇULUQ

hüquq jurnalı

**BURAXILIŞA MƏSUL:**
**Rasim Həsənov**

Təsisçinin hüquqi ünvanı:
Azərbaycan Respublikası, AZ1073
Bakı şəhəri, İnşaatçılar pr., 1
Telefon: (+99412) 510-10-01, 537-05-54
Qaynar xətt: (+99412) 539-76-75
www.justice.gov.az / contact@justice.gov.az

***

Redaksiyanın ünvanı:
Azərbaycan Respublikası, AZ1073
Bakı şəhəri, İnşaatçılar pr., 1
Telefon: (+99412) 537-06-40
Email: mojpress@justice.gov.az

"Qanunçuluq" jurnalı redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmiş, "Ədliyyə Nəşriyyat Evi" MMC-də çap olunmuşdur.
"Ədliyyə Nəşriyyat Evi" MMC-nin ünvanı:
Xaqani küç., 14, tel.: 598-26-77, 498-55-69

Bank rekvizitləri: "Ədliyyə Nəşriyyat Evi" MMC
VÖEN 1700212121 H/h 384974 AZM 380701
Azərbaycan Beynəlxalq Bankın Səbail
filialı, kod 805551, VÖEN 9900001881,
M/h 0137010002031, SWIFT/Bik IBAZAZ-2x
Sifariş: 22 Tiraj:1000 ədəd